Language L.57

# Azerbijani

مـركـز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

Version Date: 2025




Part of the

ISLAMIC
e-LIBRARY

Learn more about Islam with our informative and educational materials, translated to over 50+ languages

@islamicicdxb

CONTENTS


İSLAMA GİRİŞ

MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)

MƏSİH İSA İBN MƏRYƏM ALLAHIN ELÇİSİDİR

İSLAMDA ALLAH ANLAYIŞI

QURAN

HƏYATIN MƏQSƏDİ NƏDİR?

İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR

İSLAMDA QADIN HÜQUQLARI

QURANIN ELMİ MÖCÜZƏSİ

İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# İSLAMA GİRİŞ

AZERBIJANI (01/10) نبذة عن الإسلام FREE COPY

Praktik və balanslı həyat tərzi

Allahla yaxın və birbaşa əlaqə

Həqiqi İlah məhfumu

Bütün zamanlar və məkanlar üçün keçərli mesaj


جمعية دار البر
Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم: (2017/139)
دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS






# İslam nədir?

İslam tək haqq ilaha (ərəbcə Allah) iman gətirmək ,yalnız Ona ibadət etmək və Muhəmməd peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) Allahın son elçisi olduğuna inanmaqdır.

Təxmini hesablamalara görə dünyada 4 nəfərdən 1-i (23%) müsəlmandır – Dünyada 2 milyarddan çox müsəlman var.

İslamın ardıcılları müsəlmanlar kimi tanınır . Müsəlmanlar istənilən irqi və ya etnik mənsubiyyətə malik ola bilərlər.

# İman və əqidə

Allah bizə Öz dəlillərini göstərməklə Ona iman etməyə çağırır. Ona iman etmək, onu tanımaq həyatı məsuliyyət prinsiplərimizin təməl qayəsidir. Bu,dünya həyatındakı imtahanın bir hissəsidir. Düzgün istiqamət olmadan heç bir məlumat insanı inandıra bilməz.

| ✔ | ✘ |
|---|---|
| Obyektivlik və açıq fikir | Maneələr,inanmamaq üçün qərəzli təsəvvürlər |
| Təvazökarlıq və səmimiyyət | Qürur və təkəbbürlük |
| Varlığımızın məqsədini düşünmək | Yalnız maddi dünyaya diqqət yetirmək |
| Allahın ayələrini dərk etmək | Hər şeyi mənasız saymaq |

## Birinci səbəb: Kainatın başlanğıcı

Allaha inanmağın ilk səbəbi kainatın mənşəyi haqqında düşünməkdir.

Kainat necə yaranıb?

- ✘ Heç nədənmi yaranıb? Heç nədən hər hansı bir şey əmələ gələ bilməz. Deməli, yox.
- ✘ O Özü Özünü yaradıb? Xeyr. Bu məntiqsizdir. Bu,ananın özünü dünyaya gətirdiyini söyləməyə bənzəyir.
- ✘ Bu hal həmişə olubmu? Xeyr. Müasir elm belə nəticəyə gəlir ki, kainat əbədi deyil və başlangıcı var.
- ✔ Kainat yaradılmışdır? Bəli. Müsəlmanlar onun kainatdan kənar bir varlığın - yəni yaradan Allah tərəfindən yaradıldığına inanırlar.

***Bəs Allahı kim yaradıb?***

Kainatdan və digər məxluqlardan fərqli olaraq Allah yaradılmayıb. O əl- Əvvəldir. Ondan əvvəl heç nə yoxdur. O əl-Axırdır. Ondan sonra heç nə yoxdur

CONTENTS






# İkinci səbəb: Kainatın nizamı

Allaha inanmağın başqa bir sadə sübutu kainatın nizamı haqqında aşağıdakı məntiqlə düşünməkdir.

1. Hər hansı bir nizamlanmış şey elmin varlığına dəlalət edir.

2. Günəş sistemimiz mürəkkəb nizamlar, qanunlar və yollarla yüksək səviyyədə qurulub.

3. Kainatımızın nizamı Yaradanın biliyə sahib olmağının sübutudur.

Kainatda olan bir çox hadisələr bütün bunların həyatı dəstəkləmək üçün xüsusi olaraq yaradıldığının əyani sübutudur. Əgər bu ölçülər indikindən bir qədər fərqli olsaydı,həyat mümkün olmazdı. Buna misal olaraq:

* Ozon qatı
* Yer qabığının qalınlığı
* Havadakı oksigenin faizi
* Günəşdən uzaqlıq
* Günəş, Yer və Ayın nisbi ölçüsü

Nəzarət olmadan, təsadüfən böyük bir mürəkkəb kainat yarana bilərmi?

Qeyd edək ki, İslam elmi araşdırma və düşünməyə təşviq edir.

Elm bizə Allahın yaratdıqlarında görünən dəlilləri vəsf etməyə və Onun qüdrətinin,hikmətinin miqyasını qiymətləndirməyə kömək edir.

# Üçüncü səbəb: Vəhy – Quran

Quran öz üslubu, hikməti, hidayəti, bəlağəti və oxucu ilə rəftarında özünəməxsusluğu ilə seçilir. Digər kitablarla müqayisə olunmaz xüsusiyyətə malik olduğu üçün Allahın varlığına dair güclü dəlil hesab olunur.

Quranda heç bir səhv və ya ziddiyyət yoxdur.

Allahın düzgün və aydın vəsfi.

Ərəb dilinin gözəlliyinin zirvəsi.

Oxumaq və yazmağı bacarmayan Muhəmmədə (Allahın ona salavatı və salamı olsun) nazil olmuşdu.

1400 ildən çoxdur heç bir dəyişiklik olmadan qorunub saxlanılır.

İnsan davranışına dair dərin fikirlər

Milyonlarla insan tərəfindən əzbərlənir.

O dövrdə məlum olmayan elmi faktları ehtiva edir

***“Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün dəlillər vardır. Sizin özünüzdə də (dəlillər vardır). Məgər görmürsünüz?”***

əz-Zəriyat surəsi, 20-21 ci ayələr

CONTENTS






# Allah kimdir?

İslamın ən mühüm gözəlliklərindən biri də heç bir güzəştə getmədən Allahın tam kamilliyinə, böyüklüyünə və təkliyinə inanmaqdır.

- Allah təkdir və heç bir bənzəri,şəriki və övladı yoxdur.
- Allah birbaşa (vasitəçilər olmadan) bütün ibadətlərə layiqdir.
- Allah kamildir və heç bir qüsuru,zəifliyi yoxdur.
- Allah mərhəmətlidir . O, bizim qeyri-kamil olduğumuzu və günah işlədiyimizi bilir. Lakin,əsas odur ki, həmişə səhvlərimizi etiraf edək və səmimi qəlbdən bağışlanma diləyək.
- Onun məxluqlarında (yaratdıqlarında) Allaha bənzər hər hansı bir xüsusiyyət yoxdur və başqaları Onun özünəməxsus sifətlərinə şərik ola bilməz.

İslamda Allah anlayışını anlamağa çalışarkən İsanın mahiyyəti ilə bağlı geniş yayılmış çaşqınlıq və iddiaları nəzərə alaraq onun rolunu müzakirə etmək vacibdir.

İslam İsanı möhtərəm peyğəmbər və Allahın Rəsulu kimi tanıyır. Lakin,müsəlmanlar ona ibadət etmirlər. Çünki,ibadət İsanı və mövcud olan hər şeyi yaradan yalnız Allahadır. Beləliklə, İsanın Allah və ya Allahın oğlu və ya üçlüyün bir hissəsi olduğuna inam Allahın İslamdakı açıq təlimlərinə aydın şəkildə ziddir.

*Əgər İsa Allah olsaydı, kimə dua edərdi?*

Xristian təlimlərində İsanın Allahdan fərqli bir varlıq kimi-insan olaraq danışması və hərəkət etməsi ilə bağlı çoxlu nümunələr var. Məsələn, İsa Allaha dua edirdi.

*Allah eyni anda necə həm kamil, həm də qeyri-kamil ola bilər?*

İsa doğuldu, yedi, yatdı və məhdud biliyə malik idi. Bütün bu xüsusiyyətlər Allaha yaraşmaz. Allah kamillik sifətlərinə malikdir! insan isə əksinədir.

*Bəs "Allahın Oğlu" ifadəsi həqiqətən nə deməkdir?*

Biz görürük ki, "Allahın Oğlu" termini yalnız İsa üçün deyil, köhnə bibliya dillərində bir çox saleh insanlara edilən müraciət,xitab kimi simvolik olaraq istifadə olunur. Allah hər hansı bir oğula sahib olmaqdan çox uzaqdır.

*Əgər Allah hər şeyə qadirdirsə, niyə insan ola bilmir?*

Allah kamillik sifətlərini həmişə qoruyub saxlayır və bu kamilliklərə zərər gələsi bir şey etməz. Tərifə görə Allah qeyri-ilahi hərəkətlər etmir. Odur ki, əgər Allah insan olub insani keyfiyyətlər götürərsə, O, mütləq olaraq artıq Allah olmayacaq.

CONTENTS

































## ÇOXLU PEYĞƏMBƏRLƏR

**Adəm, Nuh, İbrahim, Musa, İsa, Muhəmməd və digər bütün elçilər**

(Allahın onlara salavatı və salamı olsun)

## I MİSSİYA

- tək Tanrı anlayışını vurğulamışlar.
- Onlar yalançı tanrıları və inancları rədd etmişlər.
- Allaha necə ibadət etməyi izah etmişlər.
- Onlar salehlik və gözəl əxlaq nümunəsidirlər
- Onlar itaətin mükafatını (Cənnəti) təsvir etmişlər.
- Onlar itaətsizliyə görə cəza (Cəhənnəm, Od) olacağını xəbərdar etmişlər.

Allah əsrlər boyu hər bir xalqa eyni böyük mesajla -yalnız bir Allaha ibadət etmək üçün peyğəmbərlər göndərmişdir. Müsəlmanlar bütün peyğəmbərləri sevsələr və onlara ehtiram göstərsələr də,onlara ibadət etmirlər. Çünki, ilahlıq, ibadət yalnız Allahın haqqıdır.

# Həyatın məqsədi

Müdrik olan Allah bizi məqsədsiz, sərgərdan gəzmək, yalnız instinkt və istəklərimizi yerinə yetirmək üçün yaratmamışdır. Əksinə, bizim daha yüksək, ən ali məqsədimiz yalnız Allahı tanıyıb ona ibadət etmək və Onun qanunlarına uyğun yaşamaqdır. Bu hidayət neməti hər cəhətdən xoşbəxt və uğurlu bir gələcək həyatın danılmaz səbəbidir.

Allah məhz sonsuz müdriklik xüsusiyyətilə bizi yaratdı və bizə Onu tanımaq, həyatımızı yaşamaq və öz seçimlərimizi etmək imkanı verdi.

İslam müsəlmanlara davranışlarına nəzarət etməyi, nəzakətli olmağı öyrədən və cəmiyyətə töhfə verən tam bir həyat tərzidir.

İslamda ibadət anlayışı təkcə namaz qılmaq və Allaha dua etmək deyil. Əksinə, (İbadət ) Allahın razı olduğu hər hansı bir hərəkəti özündə ehtiva edən geniş anlayışdır. Buna misal olaraq:

- Halal pul qazanmaq
- Haqsızlığa qarşı durmaq
- Yetimlərə qayğı göstərmək
- Ətraf mühitə diqqət yetirmək
- Səbir və təvazökarlıq göstərmək
- Cəmiyyətə fayda vermək
- Valideynlərə hörmət etmək
- Ədaləti müdafiə etmək
- Qonşulara xeyirxahlıq etmək
- Allahdan qorxmaq
- Ailəni təmin etmək
- Dürüst olmaq

İbadətlər Allahı razı salmaq üçün səmimi niyyət tələb edir. İbadətlər islam qaydalarına uyğun olaraq düzgün şəkildə yerinə yetirilməlidir.

CONTENTS






# İslam dini nə deyir. . .

**Qadınlar:** İslamda qadınlar ən yüksək hörmətə, dəyərə sahibdirlər. Onlara sevgi, hörmət və ehtiramla yanaşmaq lazımdır. Onlar kişilərin həyat ortaqlarıdır. Bu həqiqəti ədalətsizlik və zülmlə dəyişmək olmaz.

**Terrorizm:** İslam,dinindən asılı olmayaraq günahsız insanları hədəf almağı qadağan edir və cinayət hesab edir. Halbuki, İslamda mübarizəyə cəmiyyətin rifahını qorumaq, zülmün yayılmasının qarşısını almaq və ədaləti təbliğ etmək kimi yüksək və qanuni məqsədlər üçün icazə verilmişdir.

**Halal qidalar:** Halal qidalar müsəlmanların yeməsinə icazə verilən qidalardır. Heyvanlar insancasına kəsilməli, əziyyəti minimuma endirilməli, kəsim zamanı Allahın adı çəkilməlidir.

**Təkamül:** Allah ilk insan olan Adəmi mükəmməl formada-tədricən təkamül edərək inkişaf etmiş meymunlardan fərqli olaraq yaratdı.

Bunu elm bilavasitə təsdiq və ya inkar edə bilməz. Çünki,bu, nadir tarixi hadisə (möcüzə) idi. Buna görə də bu fakt eksperimental elmi tədqiqatların əhatə dairəsinə düşmür.




HOTLINE
+971 56 204 2045
islamicicdxb
islamicic.com
info@islamicic.com
+971 4 355 5223
DOWNLOAD AZER FLYER
www.iicdxb.com/azer

CONTENTS


İSLAMA GİRİŞ
MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)
MƏSIH İSA IBN MƏRYƏM ALLAHIN ELÇISIDIR
İSLAMDA ALLAH ANLAYIŞI
QURAN
HƏYATIN MƏQSƏDİ NƏDİR?
İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR
İSLAMDA QADIN HÜQUQLARI
QURANIN ELMİ MÖCÜZƏSİ
İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# MUHƏMMƏD PEYĞƏMBƏR

## (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)

AZERBIJANI (02/10) النبي محمد عليه الصلاة والسلام FREE COPY

*Bu adamı tanımalısan!*


جمعية دار البر
Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
التعريف بالإسلام
www.islamicic.com

تصريح رقم:
(2017/139)
دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

CONTENTS

































# MUHƏMMƏD KİMDİR? (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)

*Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.*
*əl-Əhzab: 21*

Müsəlmanlar inanırlar ki, Muhəmməd Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) Allah tərəfindən tək Allaha ibadət etməyə dəvət etmək üçün insanlara göndərilən bütün peyğəmbərlərin sonuncusudur. Bu silsiləyə Adəm, Nuh, İbrahim, İsmail, İshaq, Yaqub, Yusif, Musa, Davud, Süleyman və İsa (onlar Allahın salamı olsun) daxildir.

Müsəlmanlar həmçinin Musaya (ona Allahın salamı olsun) Tövratın (təhrif olunmamış) endirildiyinə İsaya (ona Allahın salamı olsun) İncil (təhrif olunmamış) endirildiyinə, və həmçının də Muhəmmədə (ona Allahın salavatı və salamı olsun) -Quran (onlara nazil olanı izah etsə, bəlkə qorxub-çəkinərlər deyə) endirildiyinə inanırlar.

Möminlərin anası Aişə (Allah ondan razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) vəsfi haqqında soruşulduqda belə cavab verdi: “ O, yer üzündə gəzən bir Quran idi.” Bu o deməkdir ki, Peyğəmbərimiz gündəlik həyatında

Quran təlimlərini təcəssüm etdirmişdir. Peyğəmbərin Quranın nəcib təlimlərini necə səxavətli peyğəmbərlik əməllərinə çevirdiyini aşağıda izah edəcəyik.

# RƏHMƏT ELÇİSİ

O, insanlara təkcə namazı və zəkatı öyrətmirdi. Həm də insanın Allaha olan imanının başqaları ilə rəftarına da təsiri olmalı olduğunu öyrədirdi. O (ona Allahın salavatı və salamı olsun) buyurdu: “Sizin ən yaxşılarınız ən gözəl əxlaqa malik olanlardır”.

*“Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik!”*
*əl-Ənbiyə 21:107*

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) bir çox kəlamlarında iman və əməl arasındakı əlaqə vurğulanır.

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) bu kəlamını misal çəkmək olar: “Kim Allaha və axirət gününə iman gətiribsə, qonşusuna əziyyət verməsin. Kim Allaha və axirət gününə iman gətiribsə, qonağına yaxşılıq etsin. Kim Allah və axirət gününə iman gətiribsə ya xeyir danışsın, ya da sussun!” əl-Buxari (6018)

CONTENTS

































Elçilərin sonuncusu (ona Allahın salavatı və salamı olsun) bəşəriyyətə bir-birinə mərhəmət göstərməyi və bir-birinə hörmət etməyi öyrətdi. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə buyurdu: “Mərhəmət etməyənə mərhəmət olunmayacaq!” əl- Buxari (5997)

Başqa bir rəvayətdə isə. Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) bəzi səhabələri ondan müşriklər üçün əzab diləməyi istədilər. O isə belə cavab verdi: “Mən lənət etmək üçün deyil, mərhəmət etmək üçün göndərildim!” Müslim (2599)

# ƏFV

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) insanların ən çox bağışlayanı və ən yaxşı qəlbə sahib olanı idi. Biri ona pislik etsə, bağışlayardı. Bir insan ona nə qədər çox pislik edərsə, o qədər də səbir edərdi. O, çox bağışlayan idi, Xüsusən də söz sahibi və gücü çatdığı vaxt.

*“(Onları) əfv edib, (cəzalandırmaqdan) vaz keçsinlər! Məgər siz Allahın sizi bağışlamağını istəmirsiniz?”*
*ən-Nur: 22*

Bağışlamaq Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) xasiyyətindən idi. Ona qarşı edilən düşmənçilik və əziyyət nə qədər böyük olsa da onun bağışlama xüsusiyyəti daha böyük idi. O, Allahın sözünə layiqincə əməl edərək əfv etməyin və təqsirlərindən keçməyin ən gözəl nümunəsi idi.

*“Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!”*
*əl-Əraf: 199*

# BƏRABƏRLİK

Aşağıdakı hədislərdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) bütün bəşəriyyətə insanların Allah yanında necə bərabər olduqlarını öyrədir.

*“Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır!”*
*Əl-Hucurat: 13*

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) buyurdu: “ Sizin atanız Adəmdir. Adəm isə torpaqdandı Ərəbin ərəb olmayandan, qaranın qırmızıdan üstünlüyü yalnız təqva ilədir!” Əhməd (23489)

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) həmçinin belə buyurdu: “ Allah sizin zahiri görünüşünüzə və mal-dövlətinizə baxmır. Əksinə, O, sizin qəlbinizə və əməllərinizə baxır.” Müslüm ( 2564)

Peyğəmbərin ( ona Allahın salavatı və salamı olsun) səhabələrindən biri digərini xoşagəlməz ifadə ilə “Ey qara qadının oğlu “ deyərək səsləndi. Bu

CONTENTS

































zaman Peyğəmbər ( ona Allahın salavatı və salamı olsun) qəzəbləndi və belə dedi: "Onu anasının qaralığına görəmi qınayırsan? Səndə cəhalətin izləri var." əl-Buxari (30)

# TOLERANTLIQ

Peyğəmbərlərin sonuncusunu vəsf edərkən həmçinin deyilir ki: "O heç vaxt pisliyə pisliklə cavab verməzdi. Əksinə, əfv edər və təqsirlərindən keçərdi. əl- Buxari (4838)

*"Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar."*
*Fussilət: 34*

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) ona qarşı haqsız davrananla, şəxsi düşmənçilik edənlə, belə müamilə edirdi.

İslam mənbələrində bir çox hallarda Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) Ona əziyyət verən, pislik edən şəxsdən intiqam almağa gücü çatdığı halda ondan intiqam almaması və bağışlaması yer alıb.

O insanlara müsübət və dərd- qəm baş verdikdə səbr etməyi öyrədirdi. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) səhabələrindən birinə nəsihət edərək dedi: "Güclü şəxs güləşdə rəqibini məğlub edən deyil, əksinə hirsləndiyi zaman özünə hakim olandı"

Səbirli və bağışlayan olmaq o demək deyil ki, müsəlman hücuma məruz qaldıqda özünü müdafiə etməməlidir. .Peyğəmbər buyurur: " Düşmənlə qarşılaşmağı arzulamayın. Allahdan afiyət (əmin-amanlıq) diləyin. Əgər qarşlaşsanız səbr edin." əl-Buxari (2966)

# YUMŞAQ (MÜLAYİM) DAVRANMAQ

Peyğəmbərin səhabələrindən biri Peyğəmbərə on il xidmət etdikdən sonar belə dedi:" Peyğəmbər həmişə yumşaq idi. Etdiyim bir şeyə görə "niyə belə etdin Etmədiyim bir şeyə görədə belə- belə edərdin demədi. Əhməd - 12784

O insanların ən mehribanı idi Bu mövzuda olan hadisələrdən biridə budur. Peyəmbərin həyat yoldaşlarından biri, qarşısında Peyğəmbəri təhqir edən bir şəxsə hirslənir və ona qarşı dua edir.

*"Allahın mərhəməti sayəsində onlarla yumşaq rəftar etdin. Əgər kobud və daş ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər."*
*Ali İmran: 159*

CONTENTS
























Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) həyat yoldaşına nəsihət edərək belə dedi: “Tələsmə, ey Aişə! Şübhəsiz ki, Allah Rafiqdir (mülayimdir) və hər bir işdə mülayim olmağı sevir.” əl-Buxari (6024)

Peyğəmbər həmçinin buyurdu: “Hər hansı bir işdə mülayimlik olarsa, o həmin işi bəzəyər. Hər hansı bir işdən götürülərsə,o işə eyib gətirər.

# TƏVAZÖKARLIQ

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) özünə hörmət üçün insanların ayağa qalxmasını həmişə qadağan edərdi. Məclisdə boş yerdə oturardı. Heç vaxt səhabələrindən (Allah onlardan razı olsun) seçilən paltar geyinməzdi. Kasıblara qarışmağı, qocalarla oturmağı, dul qadınlara kömək etməyi adət etmişdi. O, insanların arsında olan zaman onu tanımayanlar çətinliklə onu tanıya bilərdi.

*“Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!”- deyərlər”*
*əl-Furqan: 63*

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) səhabələrə (Allah onlardan razı olsun) xitab edərək dedi:” Allah təala mənə vəhy etdi ki, təvazökar olasınız. Sizlərdən biriniz digərinə qarşı qürurlanmasın və haqsız davranmasın!” Müslüm (2865)

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) özünün Allahdan başqasına, yəni özünə ibadət olunmasından qorxması onun təvazökar olmasının göstəricisidir. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) buyurdu:”

“Xristianların Məryəm oğlu İsanı təriflədikləri kimi məni təriflməkdə həddi aşmayın. Mən yalnız bir qulam. Ona görə də sadəcə “Allahın qulu və Elçisi” deyin!”

# İDEAL ƏR

Möminlərin anası, Allah Rəsulunun sevimli həyat yoldaşı Aişə (Allah ondan razı olsun) dedi: “Peyğəmbər ailəsinə xidmət edər, paltarını tikər, ayaqqablarını təmir edər və sizlərdən biriniz evində işlədiyi kimi öz evində işləyərdi.” Əhməd (25341)

*“Onlarla gözəl rəftar edin”*
*ən-Nisə: 19*

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) nəinki ailəsinə

CONTENTS






qarşı xeyirxah idi, həm də səhabələrinə ondan nümunə götürməyə və onun yolu ilə getməyə çağırırdı . Peyğəmbər(ona Allahın salavatı və salamı olsun) buyurdu:" Möminlərin iman baxımından ən mükəmməli əxlaqı gözəl olan və ailəsinə qarşı ən mehriban olandır." Əhməd (24204)

# YAXŞI NÜMUNƏ

Yuxarıda keçənlər sadəcə olaraq Muhəmməd peyğəmbərin həyatına bir baxış idi.

*"Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"*
*əl-Qələm : 4*

İslamın mediada daim təhrif edilməsini nəzərə alsaq, qeyd olunan mehribanlıq və mərhəmət nümunələri bəzi insanlar üçün sürpriz ola bilər.

Əgər biz İslamı anlamaq istəyiriksə, birbaşa onun ilkin mənbələrinə, yəni Qurana və Muhəmmədin söz və əməllərinə müraciət etməyimiz vacibdir . Bir şəxsin bəzi müsəlmanların səhv davranışlarına görə islamı mühakimə etməsi ədalətsizlikdir.

## Qeyri-müsəlmanlar Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) haqqında necə danışırdılar?

**Hindistanın müstəqillik hərəkatının siyasi və ruhani lideri Mahatma Qandi deyirdi:**

Elçinin sadəliyi , vədlərindəki dəqiqliyi və fədakarlığı, dostlarına və ardıcıllarına olan səmimiliyi, onun cəsarəti və Rəbbinə, risalətinə olan tam etibarı-bir sözlə, bütün bunlar yol açan, çətinlikləri dəf edən xüsusiyyətlərdir. Qılınc deyil."

**Britaniyalı yazıçı Corc Bernard Şou deyirdi:** "Bu gün dünyanın problemlərinin həlli üçün Muhəmməd kimi bir insana ehtiyacı var."

Orta əsrlərdə dindarlar öz cahillikləri və təəssübkeşlikləri nəticəsində Muhəmmədin dininin qaranlıq mənzərəsini çəkdilər. Onu xristianlığın düşməni hesab etdilər. Amma mən bu adamın məsələsinə baxdım və onu qeyri-adi bir möcüzə hesab etdim. Mən belə bir nəticəyə gəldim ki, o, xristianlığın düşməni deyil, Əksinə, onu xilaskar adlandırmaq lazımdır. Fikrimcə, o, bu gün dünyanı öz üzərinə götürsəydi, insanların arzuladığı sülh və xoşbəxtliyi təmin edəcək şəkildə problemlərimizi həll etməyə nail olardı. Əgər Muhəmməd kimi bir insan Avropa dünyasının başına keçsəydi, onun bütün dərdlərinə çarə tapardı. Daha doğrusu, onu bəşəriyyətin xilaskarı adlandırmaq lazımdır"

CONTENTS


- İSLAMA GİRİŞ
- MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)
- MƏSIH İSA IBN MƏRYƏM ALLAHIN ELÇISIDIR
- İSLAMDA ALLAH ANLAYIŞI
- QURAN
- HƏYATIN MƏQSƏDİ NƏDİR?
- İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR
- İSLAMDA QADIN HÜQUQLARI
- QURANIN ELMİ MÖCÜZƏSİ
- İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# MƏSIH İSA IBN MƏRYƏM ALLAHIN ELÇISIDIR

AZERBIJANI (03/10) النبي عيسى عليه الصلاة والسلام FREE COPY

*Müsəlmanlar İsanı (ona Allahın salamı olsun) sevirlər*


جمعية دار البر
Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم:
(2017/139)

دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS
























İsa (ona Allahın salamı olsun) dünyada milyonlarla insan tərəfindən sevilən şəxsiyyətdir. Lakin, hələ də bu böyük şəxsiyyətin mövqeyi haqqında bir çox mübahisəli məqamlar mövcuddur. Müsəlmanlar və xristianlar İsa Məsihə hörmət və ehtiramla yanaşırlar. Lakin, İsanı fərqli yönlərlə vəsf edərək insanlara tanıdırlar. Onların İsa haqqında fikirlərində göylə-yer arası qədər fərq var.

Bu yazı İsa (ona Allahın salamı olsun) ilə bağlı məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır. İsa Tanrı idi? Yoxsa, o, Allahın elçisi idi? İsa (ona Allahın salamı olsun)kimdir?

## (XRİSTİANLARIN) İSA ALLAH KIMI (DEMƏSİ)

Əksər xristianlar iddia edirlər ki, İsa ilahdır və ya üçlüyün bir hissəsidir. O, Tanrının yer üzərində təcəssümüdür və Tanrı insan şəklini almışdır. Halbuki, xristianlarda olan müqəddəs kitaba görə Məsih doğulub, yeyib, içib, dua edib, və məhdud biliyə sahib olub. Bütün məsələlərdən xəbəri olmayıb. Allah bu xüsusiyyətlərdən münəzzəhdir. Allahın bənzərsiz və əzəmətli sifətləri vardır. İnsan isə əksinədir. Bir varlıq necə eyni anda iki müxtəlif xüsusiyyətə sahib ola bilər?

İslam bizə öyrədir ki, uca Allah həmişə nöqsansız sifətlərə malikdir. Allahın insanda təcəssüm etməsinə inanmaq Onun(müəyyən bir zamanda) qeyri-kamil olmasını iddia etməkdir. Bu da Onu əksik sifətlərlə vəsf etmək deməkdir. Allah atılan iftira və böhtanlardan uzaqdır. Xristianlara belə sual verilməlidir: “Siz, vaxtilə zəif və köməksiz uşaq olan ilaha inanırsınız?

Hətta, yemədən, içmədən, yatmadan yaşaya bilməyən və Əhdi-Ətiqdə təsvir olunan uca Allah ilə eyni ola bilməyən bir insana?Əlbəttə, yox. İnsan soruşa bilər: “Əgər Allah hər şeyə qadirdirsə, niyə insan ola bilmir?” Bildirilən tərifə görə Allah yaradılmış məxluqlar kimi davranmaz, Hərəkətləri və təsvirləri bütün varlıqlardan fərqli, təsəvvür edə bilməyəcəyimiz xüsusi bir özəllikdədir. Çünki, O, nöqsansız xüsusiyyətlərə malikdir. Yaradılmışlara bənzər heç bir xüsusiyyətə sahib ola bilməz. O, ancaq uca sifətləri ilə vəsf olunur. Əgər Allah onun məxluqlarından birinə çevrilirsə və ya onların xüsusiyyətləri ilə vəsf olunursa, o, artıq Allah hesab edilməz.

Xristianlarda olan İncildəki bəzi ümumi ayələr Məsihin bu və ya digər şəkildə Tanrı olduğunu isbat etmək üçün dəlil olaraq səhv tətbiq oluna bilər. Lakin, müqəddəs kitabın ayələrinə nəzər salsaq görərik ki, ayələr birbaşa açıq və aydın şəkildə dəfələrlə Məsihin insan və Allahın elçisi olduğuna dəlalət edir. Ona verilən xüsusiyyətlərdən başqa hər hansı bir qeyri-adi ilahi bir gücə malik deyil. Müqəddəs kitabda Məsihin Allahdan fərqli bir məxluq olduğunu bildirən bir çox ayələr var.

- “Məsih səcdə edərək üzü üstə yerə yıxıldı. ” (Matta 26:39) Əgər Məsih Tanrıdırsa, Tanrının üzü üstə yerə yıxılıb səcdə etməsi ağlabatandırmı? Bu Tanrı kimə səcdə edirdi?

CONTENTS
























- Xristian İncilində Məsih peyğəmbər kimi təsvir olunur. (Matta 21:10-11) Bəs necə eyni vəziyyətdə Məsih həm Tanrı, həm də Tanrının elçisi ola bilər?
- Məsih(ona Allahın salamı olsun) dedi: “Mən Atamın yanına gedəcəm. Çünki, Atam Məndən böyükdür!” Yəhya 14:28
- Məsih, ( ona Allahın salam olsun) dedi: “Mən Atamın və sizin Atanızın, mənim ilahımın və sizin Tanrınızın ilahınızın yanına qalxıram. ” (Yəhya 17:20). Əgər İsa Tanrı idisə, onda nə üçün o, “mənim ilahımın və sizin ilahınızın” ifadəsini işlədir?O, kimin yanına qalxırdı?

Əgər Məsih ilah olsaydı, insanlara açıq şəkildə onu ilahlaşdırmalarını söyləyər və ona ibadət etmələrini əmr edərdi. Həmçinin, İncildə bunu açıq-aydın şəkildə ifadə edən ayələr də olardı. Lakin, o, bunun əksini etdi və ona ibadət edənləri bəyənmədi. “Və boş yerə mənə ibadət edirlər” [Matta 15:9]

# "ALLAHIN OĞLU"

Əksər xristianlar Məsihin Allahın oğlu olduğunu iddia edirlər. Bəs bu nə deməkdir?

Allah övlad sahibi olmaqdan tamamilə uzaqdır. İnsan insanı dünyaya gətirir. Bütün məxluqatlar da belədir. Bəs Allahın övladı olması nə deməkdir?

Biz görürük ki, “Allahın oğlu” termini müqəddəs kitabın yazıldığı ilk dillərdə hərfi mənada deyil, məcazi mənada, yəni, “yaxşı qul” mənasında işlədilir. Həmin kitabda bu ifadənin yalnız İsa üçün deyil, Davud, Süleyman və Yaqub (Onlara Allahın salamı olsun) üçün də istifadə edildiyini görürük .

> *“Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq “Ol!”– deyər, o da dərhal olar."*
>
> **Məryəm surəsi:35**

“İsrail mənim ilk oğlumdur. ” (Çıxış 4:22). Əslində, “oğul” sözü ilə Allahın hər hansı yaxşı quluna xitab edilir. “Allahın Ruhu tərəfindən idarə olunanların hamısı Allahın oğulları və qızlarıdır. ” (Romalılara 8:14).

# "ATA VƏ RƏBB"

Eyni şəkildə, 'Ata' sözü Allaha istinad etmək üçün istifadə edildikdə, hərfi mənada qəbul edilməməlidir. O kəlimə Allahın yaradan, ruzi verən olduğunu dəlalət etmək üçün işlədilir. “Ata” sözünün məcazi mənada işlədilməsini dəstəkləyən bir çox ayələr var. Məsələn, “Hamının tək Allahı və tək Atasıdır. ” [Efeslilərə 4:6]

Üstəlik, Məsihin şagirdləri onu “Rəbb” adlandırırdılar. Bu termin müqəddəs kitabın orijinal dillərində Allahı və yüksək statusu olan insanları vurğulamaq üçün istifadə edilmişdir.

CONTENTS






Məsələn, Yunan Əhdi-Cədidində "kyrios" termini həm "Rəbb", həm də hörmətli insanı(Matta 20:8), itaətsiz qulunu vuran ağanı ifadə etmək üçün istifadə olunur. (Luka 20. 42-47)

Müjdənin digər hissələrində şagirdlər Məsihi "Allahın qulu" adlandırırlar. (Həvarilərin işləri 3:13) "Atalarımızın Rəbbi Öz qulu İsanı izzətləndirdi. "

Bu, açıq-aydın göstərir ki, "Rəbb" termini ilə İsa əleyhissalama aid edildikdə ilahiləşdirmə deyil, şərəf mənasındadır.

# İSA PEYĞƏMBƏR

Yəhudilər İsanın gözlənilən Məsih olduğunu inkar etdilər və bu, Məsihin Tanrı və ya Tanrının oğlu kimi ibadət edildiyi xristian təlimlərinə tamamilə ziddir. İslam dini bu mövzuda digər dinlərdən fərqli olaraq orta yolu tutmuşdur. İslam dini İsanı Allahın möhtərəm elçisi, eləcə də gözlənilən Məsih kimi tanıdır.

*Körpə (dil açıb) dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə kitab verdi və məni peyğəmbər etdi."*

Quran 19:30

Lakin, müsəlmanlar İsaya ibadət etmirlər. Çünki, ibadət yalnız İsanı və bütün aləmləri yaradan uca Allaha məxsusdur.

# MÖCÜZƏVİ DOĞUŞ

Qurani-Kərimə əsaslanaraq deyə bilərik ki, Cəbrayıl (ona Allahın salamı olsun) Allah tərəfindən bakirə Məryəmə insan surətində göndərilmiş və ona insan toxunmadan Allahın möcüzəsi ilə uşaq dünyaya gətirəcəyini söyləmişdir.

***(Mələk) dedi: "Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün gələn Rəbbinin elçisiyəm" (Məryəm) dedi: "Mənə bir insan toxunmadığı və özüm də zinakar olmadığım halda necə mənim övladım ola bilər?" (Mələk )dedi: «Elədir, lakin Rəbbin buyurdu: "Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. (Bu) hökmü verilmiş bir işdir"***

Qurani-Kərim, Məryəm surəsi 21-ci ayə

Bəziləri iddia edir ki, onun möcüzəvi şəkildə doğulması onun ilahlığına işarədir. Halbuki, Məsih (ona Allahın salamı olsun) atasız yaranan ilk insan deyil. Ondan əvvəl Adəmin də nə atası, nə də anası var idi. Uca Allah buyurur:

*"Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. (Allah) onu torpaqdan yaratdı, sonra isə ona "Ol!"– dedi, o da oldu. Haqq sənin Rəbbindəndir. Elə isə heç vaxt şübhə edənlərdən olma"*

Ali İmran surəsi: 59-60

CONTENTS






Əgər İsaya atasız doğulduğu üçün ibadət olunurdusa, şübhəsiz ki, Adəm ata-anasız yaradıldığı üçün ibadətə daha layiqdir.

# İSANIN ONA ALLAHIN SALAMI OLSUN MÖCÜZƏLƏRI

İsanın (ona Allahın salamı olsun) möcüzələri təkcə onun atasız doğulması ilə məhdudlaşmırdı. Uca Allahın izni ilə o çoxlu heyrətamiz möcüzələr göstərmişdi.

O, anasını zina iftirası atanlardan müdafiə etmək üçün beşikdə olarkən insanlarla danışırdı.

Quranda, həmçinin, İsanın (Allahın izni ilə)ölüləri diriltməsi, cüzam xəstəliyinə tutulanları sağaltması və korlara şəfa verməsi qeyd olunur.

Bu möcüzələrin onun əli ilə meydana gəlməsi onun Allah-Təalaya ixlaslı bir qul, elçi və itaətkar olmasından başqa bir məna kəsb etmir. Əslində, Nuh, Musa və Muhəmməd (onlara Allahın salamı olsun) kimi bir çox elçilərin əli ilə də möcüzələr baş vermişdir. Bütün elçilərin əli ilə baş verən möcüzələr Allahın əmri və izni ilə baş vermişdir. Bu möcüzələr Allahın elçisinin səmimiyyəti aşkar olunsun və onun dəvəti, risaləti güclənsin deyə baş verirdi.

# İSANIN MESAJI

Qeyd etmək lazımdır ki, İbrahim, Nuh və Yunus kimi Əhdi-Ətiq peyğəmbərləri heç vaxt Allahın "üçlüyün üçüncüsü" olduğunu iddia etməmiş, İsanın onların xilaskarı olduğuna inanmamışlar.

Onların dəvəti bulud olmayan gündə açıq-aydın görünən günəş kimi idi. (Onların dəvəti bu idi. ) Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Allahın min illər ərzində minlərlə elçini eyni əqidə və risalətlə göndərməsi, sonra isə birdən-birə dəyişməsi ağıl və məntiqə ziddir!

Onlar deyir ki, o, üçlüyün üçüncüsüdür. Məsih onun oğludur və yalnız bu əqidə qurtuluş əqidəsidir.

Həqiqət budur ki, Məsih, (ona Allahın salamı olsun) Əhdi-Ətiqin bütün digər peyğəmbərləri kimi dəyişmədən, təhrif etmədən və (qaydaları) pozmadan insanları eyni xəbərə çağırırdı. İncildə bu xəbərin əsasını və məzmununu, başlanğıcını və sonunu təsdiqləyən İncildən bir sübut var. Bir kişi İsadan soruşdu:"Əmrlərin birincisi nədir?"

*İsa açıq-aşkar möcüzələrlə gəldiyi zaman dedi: "Həqiqətən, mən sizə hikmət gətirmişəm, həm də ixtilafda olduğunuz bəzi şeyləri (Tövratdakı bir sıra dini hökmləri) izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! Şübhəsiz ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoldur!"*

Zuxruf: 63-64

CONTENTS




İsa (ona Allahın salamı olsun) belə cavab verdi: "Dinlə, ey İsrail. Əmrlərin birincisi budur ki, Allahımız Rəbb bir Rəbbdir. " Mark: 12:28-29

Deməli, İsaya görə ən böyük əmr, ən vacib inanc Allahın tək olmasıdır.

Əgər Məsih ilah olsaydı, o: "Mən ilaham, mənə ibadət edin!"-deyərdi. Əksinə, o, uca Allahın təkliyini təsdiq edən Əhdi-Ətiq ayələrini təkrar edirdi.

Bu məsələ Məsihin mesajı və islam təlimləri ilə uyğundur. Bütün insanlara Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur mesajı ilə göndərilən digər peyğəmbərlər kimi Məsih də Allah tərəfindən Bəni-İsrailə göndərilən peyğəmbərdir.

İsa (ona Allahın salamı olsun) həm müsəlman, həm də Allahın əmrlərinə tabe olan bir qul və elçi idi. Hər bir müsəlman kimi onun da niyyəti, sözü, əməli Allah üçün idi.

# İSLAMDA İSA

İsa (ona Allahın salamı olsun) Allah tərəfindən yalnız Allaha ibadət etməyə dəvət üçün göndərilmiş bir peyğəmbər idi.

Bu məsələ İncildə olduğu kimi Quranda da öz əksini tapmışdır. İslam inancı Məsihin necə bir elçi olduğunu, onun vasitəsilə möcüzələrin hansı şəkildə baş verdiyini, eyni zamanda İsanın Allahın təkliyini və nöqsansızlığını əzmkarlıqla necə müdafiə etdiyini bizlərə bildirir.

Sizi İslamı daha çox araşdırmağa dəvət edirik. Bu başqa bir din deyil. Bu, Nuhun, İbrahimin, Musanın, İsanın və Muhəmmədin (Onlara Allahın salamı olsun) təbliğ etdiyi eyni dəvətdir. İslam "Allaha təslim olmaq" deməkdir. İnsanı Allahla, Onun yaratdıqları ilə münasibətlərinə lazımi diqqət yetirməyə təşviq edən təbii və tam bir həyat tərzidir. İslam bizə Allahın ədalətli və mərhəmətli olduğunu öyrədir. Günahları bağışlamaq üçün özünüzü və ya oğlunuzu qurban kəsməyə ehtiyac duymur. Heç kimə etmədiyi zərrə qədər günah yazılmaz. Allah hər kəsi öz əməlinə görə mühakimə edir və hər kəs öz əməlinə görə məsuliyyət daşıyır.

İslam bizə bütün peyğəmbərləri sevməyi və onlara hörmət etməyi öyrədir. Lakin, peyğəmbərlərə olan sevgi və hörmətimiz onlara ibadət etməyimiz anlamına gəlmir. Çünki, yalnız tək Allaha ibadət edilməlidir. Məsihə Allah tərəfindən göndərilmiş bir elçi olaraq iman gətirmək və İslam dininə daxil olmaq Məsihin risalətindən uzaqlaşmaq deyil.

Əksinə, bunun özü elə onun gətirdiyi orijinal risalətə və çağırışa qayıtmaq deməkdir. Ona salam olsun.

HOTLINE
+971 56 204 2045
islamicicdxb
islamicic.com
info@islamicic.com
+971 4 355 5223
DOWNLOAD AZER FLYER
www.iicdxb.com/azer

CONTENTS




# İSLAMDA ALLAH ANLAYIŞI

AZERBIJANI (04/10) مفهوم الإله في الإسلام FREE COPY

*Ən uca varlıq yalnız Yaradandır!*

جمعية دار البر
Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

*Your Path To Peace..*

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم:
(2017/139)

دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS































# ALLAH VARMI?

Allahın varlığını sübut edən saysız-hesabsız dəlillər var. Onlardan üçünü aşağıda qeyd edəcəyik.

## 1. Kainatın nizamı

Təsəvvür edin ki, uzun bir sahildə gəzərkən qumda bir saat tapırsınız. Bu saatın təsadüfən yarandığına inanarsınızmı?Hər bir halda, saatın təsadüfən qumun içindən çıxdığı qənaətinə gəlməyəcəksiniz. Bu cür mürəkkəb mexanizmə malik cihazın işçi hissələri yer üərində olan materialların təsadüfən bir araya gəlməsindən yarana bilməzdi. Bu saatın ustası olmalıdır. Əgər bu saatı istehsal etməkdə məqsəd dəqiq vaxtı təyin etməkdirsə, onda onu mütləq düzəldən bir alim olmalıdır.

Təbii təsadüflərin dəqiq və xüsusi bir sistemlə işləyən saat əmələ gətirməsi qeyri-mümkündür.

Yer planetinə nəzər salaq. Yerin günəş ətrafında dövr etmə vaxtı o qədər dəqiqliklə tənzimlənmişdir ki, bunun sayəsində elm adamları günəşin doğuş və batış vaxtlarını əvvəlcədən təyin edə bilirlər. Saatın dəqiq vaxtı təyin edə bilməsi üçün zəkalı alimə ehtiyacı olduğu kimi Yerin də günəş ətrafında dövrə vurma vaxtını təyin edən bir yaradıcısı olmalıdır. Bu öz-özünə baş verə bilərmi?

Eynilə, özümüzdə və kainatda dəqiq, nizamlı şəkildə təyin olunan qanunları və sistemləri gördükdə, kainatın bir yaradıcısı olması qənaətinə gəlmək məntiqli deyilmi?

Bu Yaradıcı ən yaxşı, düzgün təbirlə ifadə etsək, bütün kainatı yaratmağa və nizama salmağa qadir olan yalnız Allahdır.

## 2. Kainatın başlanğıcı

Müasir elm belə nəticəyə gəlir ki, kainatın başlanğıcı var. Bu nəticə kainatın genişləndiyinə dair son kəşfə əsaslanır və əgər zamanda geri qayıtsaq, kainatın bir nöqtədən başlandığını görərik. Bu da kainatın başlanğıcı olduğuna bir işarədir. Kainatın başlanğıcının üç mümkün izahı var. Bunlar:

*İnsan təcrübəsi bizə onu göstərir ki, başlanğıcı olan bir şey yoxdan yarana bilməz.*

1. Kainat yoxdan yaranmışdır.

2. Kainat özü-özünü yaratmışdır.

3. Kainat yaradılmışdır.

İkinci izaha gəlincə sadə məntiq bizə deyir ki, bir şey mövcud olmadan əvvəl heç nə edə bilməz. Üçüncü bölmədəki nəzəriyyə kainatın başlanğıcının yeganə ağıllı və məntiqli izahıdır. Yəni, kainatı hər şeyi bilən, idarə edən uca varlıq olan Allah yaratmışdır.

CONTENTS






Bəzi insanlar: "Allahı kim yaradıb?"- deyə soruşa bilər. Hər şeyi Yaradan (Xaliq) məxluqatlarından fərqlənir. Əgər məxluq kimi olsaydı, mütləq yaradana ehtiyacı olardı. Bu fikir hər şeyin yaradıcısı olduğu anlamına əsaslanan, halbuki, mümkünsüz olan sonsuz ardıcıllığa gətirib çıxarır. Yaradan Allah bu kainatın zaman və məkan hüdudlarından kənardadır. O həmişə mövcud olub, başlanğıcı və sonu olmayandır. Ona görə də Allahı kimin yaratdığı sualı məntiqsizdir.

## 3. Allahdan gələn vəhy

*Əgər Allah bəşəriyyətə hidayət kitabı nazil edibsə, belə bir kitabda Allahın varlığına dair aydın dəlillərin olması gözləniləndir.*

İslamın müqəddəs kitabı olan Quranın Allah kəlamı olduğuna dair açıq-aşkar dəlillər var. Aşağıda bu iddianı dəstəkləyən dəlillərin qısaca xülasəsi verilmişdir.

- Quran 1400 il bundan əvvəl nazil olmuşdur. Quran həmin dövrdə insanlara məlum olmayan və elm tərəfindən yeni kəşf edilən bir çox elmi həqiqətləri özündə ehtiva edir. Buna aşağıdakı sübutları misal göstərmək olar. "Su bütün canlıların həyat mənbəyidir." (Qurani-Kərim, əl-Ənbiyə :30) "Genişlənən kainat." (Qurani-Kərim, əz-Zəriyat:47) "Günəşin və ayın ayrı-ayrı orbitləri" (Qurani-Kərim, əl-Ənbiyə:33)
- Quranda həmin dövrdə insanlara məlum olmayan bir çox tarixi həqiqətlər və sonradan doğruluğu sübuta yetirilən bir çox xəbərlər var.
- Quranda səhvlərin və ziddiyyətlərin olmağı qeyri-mümkündür.
- Qurani-Kərim ərəb dilində nazil olunduğu gündən bəri sözbəsöz qorunub saxlanmışdır. Digər müqəddəs kitablar isə öz orijinal formasını itirmiş, yəni sözləri və mənaları dəyişdirilmişdir.
- Quranda insanların Uca Allah haqqında fitri etiqadlarına və düşüncələrinə xitab edən açıq-aydın ümumbəşəri mesajlar var.
- Quran, oxumağı və yazmağı bilməyən Muhəmmədə (ona Allahın salavatı və salamı olsun) nazil olmuşdur. Quran bənzərsiz dil üslubuna görə dünya miqyasında ərəb dilinin və bəlağətinin ən yüksək zirvəsi kimi tanınır.

*Quranın bir çox bənzərsiz və möcüzəvi cəhətlərinin ən məntiqli izahı onun Allah tərəfindən olmasıdır.*

## Allah kimdir?

Allah tək və haqq olan Yaradanın xüsusi adıdır. Başqa heç kimi Allah adlandırmaq olmaz. Bu kəlimənin cəmi və cinsi yoxdur. Lakin, ingilis dilində olan "God" kəlməsinin cəmi və cinsi var(yəni "gods və ya goddess" deyilir). İslam dinində Allah kəlməsinin bənzərsiz olaraq

CONTENTS































istifadəsi, tək Allah inancına nə dərəcədə önəm verildiyinin təzahürüdür.

İslamın əsas gözəlliyi ondadır ki, Allahın tam nöqsansızlığını, ucalığını və təkliyini heç bir güzəştə getmədən iqrar edir. Bu, İslamın Allahın sifətləri haqqında verdiyi məlumatlarda öz əksini tapmışdır.

*“Sizin ilahınız Tək olan İlahdır. Ondan başqa ilah yoxdur!”*

*Qurani-Kərim, əl-Bəqərə:163*

## Allah təkdir!

- Allahın şəriki, oxşarı və rəqibi yoxdur.
- Allahın atası, anası, oğlu, qızı və arvadı yoxdur.

Bütün ibadətlərə layiq olan yalnız Allahdır!

Əgər Allahla yanaşı birdən çox ibadət olunan olsaydı, bu, Onun qüdrətində və ya səlahiyyətində çatışmazlığı əks etdirərdi. Çünki, bu məsələ Allahın rəqabətə girməsini, güzəştə getməsini və ya başqa tanrılarla razılaşma ehtiyacını zəruri edərdi. (Allah bütün bunlardan münəzzəhdir)

## Uca Allah hər şeyə qadirdir!

- Allah hər şeyin üzərində səlahiyyət sahibidir. O, hər bir şeyə qadirdir.
- Hər şey uca Allahın əlindədir. Hər bir kəsi öz ruzisinə yönəldən yalnız Allahdır.
- İtaətkarın itaəti Uca Allaha fayda verməz, itaətsizin itaətsizliyi də ona zərər verməz.

## Ən uca olan yalnız Allahdır!

- Allahı heç nə üstələmir və heç bir şey onunla müqayisə oluna bilməz.
- Allahin sifətləri məxluqatın sifətlərinə bənzəmir.
- Uca Alla heç kimdə və heç bir şeydə təcəssüm etməmişdir.
- Ən kamil sifətlər Allaha məxsusdur. Allah nöqsansızdır! Bəzi başqa dinlərin iddia etdiyi kimi kainatı yaratdıqdan sonra yeddinci gündə dincəlmək istəməsi kimi acizlik sifətləri Allaha aid deyil

## Ən adil və ən mərhəmətli yalnız allahdır

- Allahın günahları bağışlaması üçün Özünü fəda etməsinə ehtyac yoxdur. Heç bir insan günahla doğulmur.
- Allah hər kəsi öz əməlinə görə mühakimə edir və hər kəs öz əməlinə görə cavabdehdir.
- İnsanlar irq, var-dövlət və ya sosial statusu ilə deyil, yalnız iman, fəzilət, təqva ilə fərqlənə və Allahın razılığını qazana bilər.

CONTENTS






# İSANIN (ONA ALLAHIN SALAMI OLSUN) TƏBİƏTİ

*İslamda Allah məfhumunu izah etdikdə, İsanın (Allahın ona salamı olsun) mövqeyi haqqında da fikir bildirmək önəmlidir. Çünki, İsanın xarakteri ilə bağlı insanlar arasında geniş yayılmış qarışıqlığı və yanlış iddiaları nəzərə alsaq, onun mövqeyini anlamağın mühüm olması ortaya çıxır.*

Əksər xristianlar iddia edirlər ki, "İsa Tanrıdır" – yəni, o, Tanrının yer üzərində təcəssümüdür(Allah bundan münəzzəhdir) və Tanrı insan şəklini almışdır.

Bununla belə, özlərində olan İncilə görə İsa doğulub, yeyib, yatıb, dua edib və məhdud biliyə sahib olub. Bütün bu sadalanan xüsusiyyətlər Allaha yaraşmaz. Allahın nöqsansız sifətləri var. İnsan isə bunun əksidir və nöqsansızlıqdan məhrumdur. Beləliklə, bir şey necə eyni anda iki müxtəlif xüsusiyyətə sahib ola bilər? Bu məntiqli deyil.

Bununla belə, bəzi insanlar:"Əgər Allah hər şeyə qadirdirsə, niyə insan ola bilmir?"-deyə soruşa bilər. Allah özünəməxsus xüsusiyyətlərə aid olmayan hərəkətlər etmir. Odur ki, əgər Allah insan olub onun xüsusiyyətlərini götürsəydi, o artıq Allah olmayacaqdı.

Bundan əlavə xristianlarda olan İncildə Məsihin Allahın qulu kimi danışdığı, hərəkət etdiyi və Allahın ondan fərqli olduğunu bildirən bir çox ayələr var.

"Amma indi məni, Allahdan eşitdiyi həqiqəti sizə söyləyən adamı öldürmək istəyirsiniz?" (Yəhya 8/40)

Xristianların əksəriyyəti Məsihin Allahın oğlu olduğuna inanır. Ancaq biz özümüzə sual verməliyik ki, bu əslində nə anlama gəlir?

Şübhəsiz ki, Allah övlad sahibi olmaqdan münəzzəhdir. Biz görürük ki, "Allahın oğlu" termini simvolik olaraq ən qədim bibliya dillərində saleh insanlara müraciət üçün istifadə olunur. Yəni, bu söz yalnız İsa üçün deyil, Əhdi-Ətiqin bir çox ayələrində Davud, Süleyman və İsrail kimi bir çox saleh insanlara aid edilən xitabdır.

Buna misal olaraq onun "... İsrail mənim ilk oğlumdur" kəlamıdır (Çıxış 04:22).

*"Allaha övlad götürmək yaraşmaz!"*

*Qurani-Kərim, Məryəm surəsi 19:35*

İslam əqidəsi Allahın böyüklüyünü, əzəmətini, təkliyini, nöqsansızlığını qoruyub saxlamaqla həqiqi Məsihin kim olduğunu doğru şəkildə bizlərə izah edir.

Məsih (Ona Allahın salamı olsun) uca Allah tərəfindən tək Allaha ibadət etməyə dəvət etmək üçün göndərilmiş şərəfli bir elçi idi.

CONTENTS






















## İbadətə layiq yalnız Allahdır

*"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!"*

Qurani-Kərim, ən-Nisə:36

İslam dini bütün əməlləri yalnız Allaha yönləndirməyimizi bizə əmr edir. Ondan başqa bütlər, qəbirlər, günəş, ay, heyvanlar, peyğəmbərlər, saleh insanlar, mələklər, şeyxlər və alimlərin heç biri ibadətə layiq deyildir. Bunların hamısı müəyyən səlahiyyətlər verilmiş, nöqsanlı, aciz varlıqlardır. Mütləq nöqsansız olan isə yalnız Allahdır.

## Uca Allaha hər hansı bir vasitəçi və şəfaətçi olmadan birbaşa ibadət olunur!

Uca Allahın heç bir şərikə və vasitəçiyə ehtiyacı yoxdur. Hər bir kəs istədiyi vaxt Allaha birbaşa onun buyurduğu kimi ibadət edə bilər. Çünki, O, Ona müraciət edən, yalvaran, dua edən hər bir kəsin eyni anda duasını eşidir.

Allaha dolayı yolla ibadət etmək (məsələn, bütlər, heykəllər və ya digər vasitələrlə, şəfaətçilərlə) Allahın birliyinə və yalnız Ona əda edilməli olan ibadət prinsiplərinə xələl gətirmək kimi qiymətləndirilir.

## Bütün elçilər yalnız Allaha ibadət etməyə çağırdılar

*Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan çəkinin!" – deyə peyğəmbər göndərmişdik.*

Qurani-kərim, ən-Nəhl:36

Müsəlmanlar Uca Allahın göndərdiyi Adəmə, Nuha, İbrahimə, Musaya, İsaya, Muhəmmədə (onlara Allahın salamı olsun) və bütün digər peyğəmbərlərə inanırlar. Onların hər biri eyni mesajla, öz xalqına dəvət üçün gəlmişdilər. Bu:" Allaha ibadət edin. Sizin ondan başqa ibadətə layiq haqq məbudunuz yoxdur. "- mesajı idi.

## Həyatın məqsədi uca Allaha ibadət etməkdir!

Bizim yaradılış qayəmiz Allaha ibadət etməkdir. Həmçinin, hər şeyin sahibinin Allah olduğuna inanmaq, ibadətlərin yalnız ona edildiyini etiraf etmək və onun razılığını axtarmaqdır. İslamda ibadət anlayışı təkcə namaz qılmaq, oruc tutmaq kimi əməllərlə məhdudlaşmır. İbadət dedikdə, həmçinin, Allahın sevdiyi və razı qaldığı hər şey nəzərdə tutulur. Bu kateqoriyaya salehlərin əxlaqı, itaətkarların itaəti, səbirlilərin səbri, kasıblara və yoxsullara edilən xeyirxah əməllər də daxil olmaqla bir çox ibadətləri misal gətirmək olar.

Sonda onu qeyd edək ki, islamın təməli hər şeyin Rəbbi və sahibi olan, pak, nöqsansız sifətlərə malik uca Allahın tək olmasına, yalnız Onun ibadətə layiq olduğuna iman gətirməkdir. Bizim dünya və axirətdəki xoşbəxtliyimiz məhz bundadır.

HOTLINE
+971 56 204 2045
islamicicdxb
islamicic.com info@islamicic.com +971 4 355 5223
DOWNLOAD AZER FLYER
www.iicdxb.com/azer

CONTENTS


İSLAMA GİRİŞ

MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)

MƏSİH İSA İBN MƏRYƏM ALLAHIN ELÇİSİDİR

İSLAMDA ALLAH ANLAYIŞI

QURAN

HƏYATIN MƏQSƏDİ NƏDİR?

İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR

İSLAMDA QADIN HÜQUQLARI

QURANIN ELMİ MÖCÜZƏSİ

İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# QURAN

AZERBIJANI | (05/10) | القرآن | FREE COPY

*Bəşəriyyətə son vəhy*




Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم:
(2017/139)

دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS






# QURAN NƏDİR?

## Allahın kəlamı

Quran uca Allahın kəlamıdır. Cəbrayıl vasitəsilə Muhəmməd peyğəmbərə nazil olmuşdur.

*“Kitabın (Quranın) nazil edilməsi yenilməz qüvvət, hikmət sahibi Allah tərəfindəndir!”*

39:1

## Bəşəriyyətə hidayət

*Quran qısaca olaraq: “İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran... ”*

2:185

Quran bəşəriyyəti haqla batil arasında seçim etməyə yönəldən, doğru olanla səhv olan arasında hökm etməyə yönəldən mənbədir. Quran olmadan insan zəlalət yollarında mütləq həlak olar.

## Sonuncu vəhy

Quran, əvvəlki müqəddəs kitabların bəzi hissələrində qalmış həqiqətin azlığını təsdiq edən, bu müqəddəs kitabların indiki nüsxələrinə daxil olan böhtan və əlavələri təkzib edən, uca Allah tərəfindən nazil edilən son kitabdır.

*( Ey kitab verilmiş kimsələr!Əlinizdə olanı (Tövratı) təsdiqləyən olaraq nazil etdiyimizə (Qurana) iman gətirin!)*

4:47

# QURAN NECƏ NAZİL OLUB?

Quran Muhəmmədə (ona Allahın salamı və salavatı olsun) nazil olmuşdur. O yalnız nazil olduğu dildə, yəni ərəb dilində mövcuddur. Lakin, Quranın mənaca tərcüməsi bir çox dillərdə də var.

Quran bir vəhylə bütöv bir kitab kimi nazil edilməmişdir. Əksinə, vəhy 23 il müddətində həyata keçirilib.

Quranı düzgün başa düşmək üçün ayələrin hansı şəraitdə nazil olduğunu bilmək lazımdır. Əks halda onun təlimləri səhv başa düşülə bilər.

CONTENTS

































# Mən bunun Allahdan oldu

## Qorumaq

Quran uzun müddət dövriyyədə olan, lakin nazil olduğu gün kimi nöqsansız, dəyişimə məruz qalmayan yeganə dini müqəddəs kitabdır.

1400 ildən artıqdır ki, nazil edildiyi gündən bəri ona heç nə əlavə olunmamış, ondan heç nə çıxarılmamış və dəyişdirilməmişdir.

*Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!"*
(9:15)

Quran təkcə yazılı şəkildə deyil, həm də kişilərin, uşaqların və qadınların-birsözlə, bütün insanların qəlbində qorunub saxlanılmışdır. Bu gün milyonlarla insan Quranı başdan ayağa əzbərləyir.

## Elmi möcüzələr

Quran müasir elmlə ziddiyyət təşkil etmir. Əksinə, onun həqiqətlərini dəstəkləyir. Quranın ecazkar cəhətlərindən biri də onun embriologiya, meteorologiya, astronomiya, geologiya və okeanoqrafiya kimi müxtəlif elm sahələrində olan təbiət hadisələrini dəqiq təsvir edən çoxlu ayələri özündə əks etdirməsidir. Alimlər onun təsvirlərinin VII əsrə aid bir kitab üçün inanılmaz dərəcədə dəqiq olduğunu müəyyən etmişlər.

*"(Quranın) haqq olduğu onlara aydın olana qədər Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik."*
(41:53)

Əslində, Quranda bəhs edilən elmi möcüzələrin bir çoxu texnoloji avadanlıqların müasir təkmilləşməsi nəticəsində yeni kəşf edilmişdir.

Aşağıdakıları yadda saxlayın:

- Quranda insan dölünün inkişafı təfərrüatlı təsvir edilir. Bu təfərrüatlar yaxın vaxtlara qədər elmi ictimaiyyətə məlum deyildi.
- Müasir elm iki dənizin qovuşduğunu, lakin öz temperaturunu, sıxlığını və duzluluğunu qoruyub saxlamağa imkan verən maneələrin olmasını kəşf etmişdir.

Allahın bu dəlilləri Quranda 1400 ildən artıqdır ki, açıq şəkildə bəyan edilmişdir.

CONTENTS


























# ğunu necə anlaya bilərəm?

## Unikallıq

Nazil olduğu gündən bəri heç kim gözəlliyə, bəlağətə, əzəmətə, hikmətə, gətirən xəbərlərə və digər mükəmməl xüsusiyyətlərə malik Quran surəsi kimi bir surə gətirə bilməmişdir.

*“Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı (bütün) şahidlərinizi (köməyə) çağırın! “*

Quran 2:23

Muhəmməd peyğəmbəri inkar edənlər Quranın dilini mükəmməl bilsələr də, bu çağırışda uğursuzluğa düçar oldular. Həmin çağırış bu günə qədər cavabsız qalır.

## Heç bir ziddiyyət yoxdur!

İnsanlar hər hansı bir yazını yazarkən təbii olaraq orfoqrafik və ya qrammatik səhvlərə, ziddiyyətli ifadələrə, uyğun olmayan nəticələrə, əsaslandırmada yanılmalara və digər bir çox insani səhvlərə yol verirlər.

*Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.*

Quran 4:82

Quranda su dövranı, embriologiya, geologiya, kosmologiya, həmçinin tarixi faktlar və hadisələrin elmi izahlarında, eləcə də peyğəmbərlər haqqında məlumat və ardıcıllıqda hər hansı bir ziddiyyətə rast gəlmək qeyri-mümkündür.

## Müəllifi Muhəmməd ola bilməzdi?

Muhəmməd peyğəmbər tarixdə oxuyub-yazmağı bacarmayan bir insan kimi tanınır. O, heç bir sahə üzrə təhsil almamışdı. O bu gözəl kitabın elmi, tarixi dəqiqliyini və ədəbi gözəlliyini izah edə bilməzdi. Quranda bəhs edilən əvvəlki xalqların və mədəniyyətlərinin tarixi ilə bağlı ətraflı və dəqiq məlumatlar insanoğluna məxsus hər hansı bir kitabda qeyd edilməmişdir.

*Bu Quran, Allahdan başqasına yalandan aid edilə bilməz.*

Quran 10:37

VƏHYİN

CONTENTS


























# MƏQSƏDİ

## Haqq və tək olan Allaha inanmaq

*Sizin ilahınız tək olan ilahdır. Ondan başqa ilah yoxdur. Mərhəmətlidir, Rəhmlidir.*

2:163

Quranda bəhs edilən ən mühüm mövzu tək və haqq olan Allaha imandır. Allah bizə bildirir ki, Onun heç bir şəriki, övladı və tayı-bərabəri yoxdur. Ondan başqa heç kim ibadətə layiq deyildir. Heç bir şey Allahla müqayisə oluna bilməz. Onun yaratdığı heç bir şey Ona bənzəməz. Quran insana məxsus xüsusiyyətləri və qüsurları Allaha aid etmək fikrini də rədd edir.

## Bütün batil ilahları rədd etmək

*Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!*

Quran (4:36)

İbadətə layiq yalnız Allah olduğu üçün bütün tağutları və batil ilahları rədd etmək vacibdir. Quran da ilahi sifətləri Allahdan qeyrisinə və ya hər hansı bir varlığa aid etmək fikrini rədd edir.

## Keçmişdən hekayələr danışır

Quranda Adəm, Nuh, İbrahim, İsa və Musa kimi əvvəlki peyğəmbərlərin həqiqi hekayələri də daxil olmaqla, faydalı bir çox hekayələr var. Bu hekayələrdə uca Allah belə buyurur:

*“Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. ”*

Quran 12:111

## Bizə Qiyamət gününü xatırladır

Bu şərəfli kitab hər kəsin ölümü dadacağını, etdikləri bütün əməllərin və danışdıqları bütün sözlərin hesabını verəcəklərini xatırladır.

*“Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. ”*

Quran 21:47

## Nəzərdə tutulan həyat tərzinə nail olmaq

Əsas odur ki, Quran həyatın məqsədini yalnız Allaha ibadət etmək və Onun razı qaldığı həyat tərzinə uyğun yaşamaq olduğunu bizə öyrədir. İslamda ibadət, aşkarda və ya gizlində Allahın sevdiyi və razı qaldığı bütün əməlləri və sözləri özündə cəmləşdirən bir termindir. Deməli, müsəlman Allahın buyurduqlarını yerinə yetirməklə Allaha ibadət etmiş və həyati məqsədini əməli olaraq icra etmiş olur. Aşağıdakı dəlillər Quranda olan ibadətə aid nümunələridir:

CONTENTS




## Namaz

Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edərək yaxşı işlər görün ki, bəlkə nicat tapasınız.

Quran 22:77

## Sədəqə

Malınızdan öz xeyiriniz üçün xərcləyin. Nəfsinin tamahından (istəklərindən, arzularından) qorunanlar nicat tapanlardır.

Quran 64:16

## Əmanət

Özünüz də bilə-bilə haqqa batil donu geyindirməyin və haqqı gizlətməyin.

Quran 2:42

## Təvazükarlıq

“Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar.... “Mömin qadınlarada de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar.”

Quran 24:30-31

## Şükür edən olmaq

“Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz.”

Quran 16:78

## Ədalət

“Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. (Əleyhinə şahidlik edəcəyiniz şəxslərin) varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır”

Quran 4:135

## Səbr

“Səbr et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.”

Quran 11:115

## Yaxşı(saleh) əməllər

“Allah iman gətirib saleh əməllər edənlərə vəd etmişdir ki, onlar üçün bağışlanma və böyük mükafat vardır.”

Quran 5:9

## Nəticə

Qısacası, Quran, insanlara tək və haqq olan Allaha necə ibadət etməyi, bununla da həyatdakı həqiqi məqsədə çatmağı, yəni həm dünyada, həm də axirətdə uğur qazanmağı öyrədir.

(Biz Kitabı(Quranı) sənə insanlar üçün (zəruri) (olan) bir həqiqət kimi nazil etdik. Kim doğru yolla getsə, (xeyiri) onun özünə olar. Kim azğınlığa düşsə, (ziyanı) onun öz əleyhinə olar. )

Quran 39:41

CONTENTS


İSLAMA GİRİŞ
MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)
MƏSİH İSA IBN MƏRYƏM ALLAHIN ELÇİSİDİR
İSLAMDA ALLAH ANLAYIŞI
QURAN
HƏYATIN MƏQSƏDİ NƏDİR?
İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR
İSLAMDA QADIN HÜQUQLARI
QURANIN ELMİ MÖCÜZƏSİ
İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# HƏYATIN MƏQSƏDİ NƏDİR?

AZERBIJANI | (06/10) الغاية من الحياة | FREE COPY

*Haradan gəlmişəm?*

*Mən niyə bu həyatdayam?*

*Ölümdən sonra hara gedəcəm?*



Dar Al Ber Society
www.daralber.ae

الإمـــارات
THE EMIRATES

*Your Path To Peace..*

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم: (2017/139)

دائـــرة الشـــؤون الإســـلامية والعمـــل الخيـــري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS






# HƏYATIN MƏQSƏDİ NƏDİR?

Həyatın məqsədini düşünərkən ilk ağıla gələn suallardan biri budur: “Biz haradan gəlmişik?”

Bu həyatda varlığımız təbii təsadüflər nəticəsində əmələ gəlib? Yoxsa, müdrik yaradanın işidir? Yaradanın varlığını etiraf etmək, həyatdakı varolma qayəmizi dərk etmək üçün ilk addımdır.

Yaradanın varlığına inanmaq üçün çox sayda məntiqi və rasional səbəblər var. Aşağıda onlardan üçünü qısaca qeyd edirik.

## 1. Kainatın başlanğıcı

Allahın varlığına işarə edən ilk dəlil kainatın mənşəyinin dərk edilməsi ilə bağlıdır.

Təsəvvür edin ki, səhrada gəzərkən bir saat tapdınız. Biz bilirik ki, saat şüşə, plastik və metaldan ibarətdir. Şüşə qumdan, plastik neftdən hazırlanır. Metal isə yerdən çıxarılır. Bunların hamısına səhrada rast gəlsəniz, saatın öz-özünə yarandığına inanarsınızmı?

Günəşin parlaması, küləyin əsməsi, şimşəyin çaxması, neftin səthə çıxması, qum və metala qarışması nəticəsində milyonlarla il ərzində saatın təsadüfi və ya təbii təsadüflərlə bir araya gəlməsi mümkündürmü?

*Bəziləri soruşa bilər: “Allahı kim yaratdı?” Hər şeyi yaradan Allah yaratdıqlarından fərqlənir. Allah əbədidir. Həmişə mövcud olub və başlanğıcı olmayıb.*

İnsan təcrübəsi və sadə məntiq bizə deyir ki, başlanğıcı olan hər şey yoxdan var ola bilməz və heç bir şey özünü yarada bilməz.

Buna görə də ən rasional izah bu kainatı yaradan bir Yaradıcının olmasıdır. Bu “Yaradan” hər şeyə qadir və hər şeyi bilən olmalıdır. Çünki, O, bütün bu kainatı yoxdan yaratmış və onu idarə etmək üçün elmi qanunlar tərtib etmişdir. Biz bu Yaradanın zamansız və məkansız olduğunu da əsaslandıra bilərik. Çünki, zaman və məkan anlayışı kainatın yaradılmasının başlanğıcı ilə meydana gəlmişdir. Bütün bunlar kainatın yaradıcısı olan Allahın xüsusiyyətlərini xarakterizə edir. Bu, kainatın başlanğıcı və sonu olduğu qənaətinə gələn müasir elmlə tamamilə uyğundur.

CONTENTS






## 2. Kainatın yaradılışının kamilliyi

Hər şeyi bilən bir Yaradanın varlığına dəlalət edən ikinci dəlil isə kainatımızın mükəmməl nizamı və tarazlığıdır.

Kainatdakı baş verən bir çox prosseslər, həyatı dəstəkləmək məqsədilə xüsusi olaraq yaradıldığını açıq şəkildə biruzə verir. Yerlə günəş arasındakı məsafə, yer qabığının qalınlığı, yerin firlanma sürəti, atmosferdəki oksigen nisbəti, hətta yer oxunun əyilməsi buna əyani misal ola bilər. Əgər bu ölçülər indikilərdən bir qədər fərqli olsaydı, ozaman həyat mövcud ola bilməzdi.

Necə ki, saatın dəqiq vaxtını qeyd etmək üçün bilikli bir istehsalçısı varsa, Yerin də günəş ətrafında firlanma müddətini dəqiq təyin edən hər şeyi bilən bir yaradıcısı olmalıdır. Bu öz-özünə baş verə bilərmi?

Özümüzdə və bütün kainatdakı nizamı, dəqiq qanunları və sistemləri gördükdə, onların bir təşkilatçısı olmasını düşünmək məntiqli olmazmı?

Bu“təşkilatçının” ən yaxşı izahı bütün bu sistemi yaradanın Allah olmasıdır.

## 3. Allahdan gələn vəhy

Allahın varlığına dəlalət edən üçüncü dəlil bəşəriyyətə göndərdiyi həqiqi vəhydir. İslamın kitabı olan Quranın Allah kəlamı olduğuna açıq-aşkar dəlillər var. Aşağıda bunu dəstəkləyən dəlillərin qısa xülasəsi verilmişdir.

- Qurani-Kərim 1400 il bundan əvvəl nazil olmuşdur. Quran, o dövrdə insanlara məlum olmayan və elm tərəfindən yeni kəşf edilən bir çox elmi həqiqətləri ehtiva edir. Buna aşağıdakı dəlilləri misal olaraq göstərmək olar: **“Su bütün canlıların həyat mənbəyidir”** (Qurani-Kərim əl-Ənbiyə-30).
  **“Genişlənən kainat”** (Qurani-Kərim əz-Zəriyət-47).
  **“Günəşin və ayın ayrı-ayrı orbitləri var”** (Qurani-Kərim əl-Ənbiyə-33)
- Quranda o dövrdə insanlara məlum olmayan bir çox tarixi həqiqətlər və sonradan doğruluğu sübuta yetirilən xəbərlər mövcuddur.
- Quranın 23 il ərzində tədricən nazil olmasına və geniş mövzuları əhatə etməsinə baxmayaraq, kitabda hər hansı bir səhvə və ziddiyyətə rast gəlmək qeyri-mümkündür.
- Qurani-Kərim ərəb dilində nazil edildiyi gündən bəri sözbəsöz qorunub saxlanmışdır. Digər müqəddəs kitablar isə öz orijinal formasında deyil.

*Əgər Allah insanlara hidayət kitabı nazil edibsə, deməli, həmin kitabda Allahın varlığına dair açıq-aydın dəlillərin olması mütləqdir.*

CONTENTS

































- Quranda uca Allah haqqında köklü etiqadlara və düşüncələrə xitab edən açıq-aydın ümumbəşəri mesajlar var.
- Quranın insanlar üzərində böyük təsiri vardır. Bunu ancaq qəlbi onun şirinliyini dadmış insanlar hiss edə bilər.
- Quran, oxumaq və yazmaq bilməyən Muhəmmədə (ona Allahın salavatı və salamı olsun) nazil olmuşdur. Quranın özünəməxsus dil üslubu var. Bu üslub dünya miqyasında ərəb bəlağətinin və dil gözəlliyinin zirvəsi kimi tanınır.

Quranın bir çox bənzərsiz və möcüzəvi cəhətlərinin ən məntiqli izahı onun Allahın kəlamı olmasıdır.

# Allah hidayət edəndir

Hikmətli Yaradanın bizi məxluq olaraq yaratdığını qəbul etdikdən sonra dərk edirik ki, bundan sonra O, məxluqları yaratmaqda məqsədinin nə olduğunu bizlərə açıqlayacaq. Allahın bizdən nə istədiyini necə bilərik?

Sınaq və yanlış həyatımı yaşayırıq?Yoxsa, öz istəklərimizə nail olmaq üçünmü var olmuşuq? Başqalarına tabe olmaqla"axınlamı gedirik"? Yox. Allah bizim yaradılış qayəmizi bildirmək üçün elçilər göndərdi və kitablar nazil etdi.

Allah hər bir ümmətə ən azı bir nəfər olmaqla minlərlə elçiləri eyni risalət ilə göndərib:

"Tək Allaha ibadət etmək və onun göstərdiyi yola tabe olmaq. " Bu elçilər arasında Adəm, Nuh, İbrahim, Musa, İsa və Muhəmməd də(onların hamısına Allahın salavatı və salamı olsun)var idi.

Muhəmməd peyğəmbər (ona Allahın salavatı və salamı olsun) peyğəmbərlərin sonuncusu idi. O, dürüstlük, ədalət, mərhəmət və şücaətdə insan övladının ən mükəmməl nümunəsi idi. O, Allah tərəfindən yer əhlinə nazil edilən sonuncu vəhy olan Qurani-Kərimi insanlara bəyan edir ki, bəlkə Allahdan qorxarlar. Quran insanların çoxunu maraqlandıran bir çox anlayışı, varlığımızın məqsədini, Allahın kim olduğunu, Allahın sevdiyi və razı qaldığı əməlləri, Allahın sevmədiyi və rədd etdiyi əməlləri, əvvəlki peyğəmbərlərin hekayələri və onlardan alınan ibrətləri, Cənnət, Cəhənnəm və qiyamət günü xəbərlərini bildirən, izah edən bir hidayət kitabıdır.

Quran həm də Allah ilə bağlı yanlış təsəvvürlərə aydınlıq gətirmək, Məsihin (ona Allahın salam olsun) mahiyyətini, rolunu aydınlaşdırmaq, eləcə də uca Rəbb ilə Məsihin fərqini izah etmək məqsədi daşıyır.

***İsa da bütün digər peyğəmbərlər kimi möcüzələr göstərdi və tək Allaha ibadət etməyə çağırdı. Qurani-Kərim 19:36***

CONTENTS






# İsanın (ona Allahın salamı olsun) təbiəti

Bəzi xristianlar İsanın ilah və ya üçlüyün üçüncüsü olmasını, yer üzərində Tanrının təcəssümünü əks etdirdiyini və ya insan şəklində Tanrı olduğuna etiqad edirlər. Özlərində olan İncilə görə İsa doğulub, yeyib, içib, yatıb, dua edib və özlüyündə bütün elmlərə sahib olmayıb. Yuxarıda sadalanan xüsusiyyətlərə Allah layiq deyildir. Allah bütün kamal sifətlərinə malikdir. İnsan isə əksinədir. Bəs bir şey necə eyni anda iki tam əks xüsusiyyətə sahib ola bilər? Bu, məntiqli deyil.

*İslamda Allah məfhumunu izah etməyə çalışarkən İsanın xarakteri ilə bağlı geniş yayılmış qarışıqlığı və iddiaları nəzərə alsaq, İsanın xarakterini anlamağın mühüm olması ortaya çıxır.*

Bununla belə bəzi insanlar:“Əgər Allah hər şeyə qadirdirsə, niyə insan ola bilmir?”- deyə soruşa bilər.

Allah ilahi, yəni özünəməxsus xüsusiyyətlərə aid olmayan hərəkətlər etmir. Odur ki, əgər Allah insan olub onun xüsusiyyətlərini götürsəydi, o artıq Allah olmayacaqdı.

Bundan əlavə xristianlarda olan İncildə Məsihin Allahın qulu kimi danışdığı, hərəkət etdiyi və Allahın ondan ayrı bir varlıq olduğunu bildirən bir çox ayələr var.

Məsələn, Matta İncilinin 26:39-cu fəslində :“O, səcdə edərək üzüstə yerə yıxıldı.”

“Məsih səcdə edərək üzüüstə yerə yıxıldı. ” (Matta 26:39)

Əgər Məsih Tanrıdırsa, Tanrının üzüüstə yerə yıxılıb səcdə etməsi ağlabatandırmı? Bu Tanrı kimə səcdə edirdi?

Xristianların əksəriyyəti Məsihin Allahın oğlu olduğuna inanır. Biz özümüzə sual verməliyik ki, bu tam olaraq nə deməkdir? Şübhəsiz ki, Allah övlad sahibi ola bilməz.

Əksinə, biz görürük ki, “Allahın oğlu” termini ən qədim İncillərin dilində saleh qulları təsvir etmək üçün ritorik olaraq istifadə olunur. Bu termin, Əhdi-Ətiqin bir çox ayələrində Davud, Süleyman və Yaqub kimi bir çox saleh insanlara müraciət məqsədilə istifadə edilmişdir. Bu söz yalnız Məsihlə məhdudlaşmır.

Buna misal olaraq onun:“. . . İsrail mənim ilk oğlumdur. ”-kəlamıdır. (Çıxış 04:22).

İslam dini həqiqi Məsihin kim olduğunu Allahın böyüklüyünü, əzəmətliliyini, təkliyini, kamilliyini təsdiq etməklə, yəni, düzgün əqidəni qoruyub saxlamaqla bizlərə açıqlayır.

*“Allaha övlad götürmək yaraşmaz.” Quran Kərim(Məryəm surəsi 19:35*

Məsih (Ona Allahın salamı olsun) uca Allah tərəfindən tək Allaha ibadət etməyə dəvət etmək üçün göndərilmiş səxavətli bir elçi idi.

CONTENTS

































# Elə isə. . . Mən niyə burdayam?

Hər kəs bədəninin göz, qulaq, beyin, ürək kimi üzvlərinin müəyyən bir məqsəd üçün yaradıldığını etiraf edir. Bu insanın yaradılmasının məqsədyönlü olması demək deyilmi ?

Hər şeyi bilən uca Allah bizi boş yerə, sadəcə sərgərdan gəzib-dolaşmaq üçün yaratmayıb. Yalnız yemək, içmək və cinsi əlaqə kimi bir çox təbii istəklərimizi təmin etmək üçün yaratmayıb. Bizim ali məqsədimiz var. O da uca Allahın varlığını etiraf edərək yalnız Ona ibadət etməkdir. Bununla da yaradanımızın bizə bəxş etdiyi hidayət neməti ilə yaşaya bilirik. Və bu hidayət bizə dünyada uğurlu və xoşbəxt bir həyat sürməyə imkan yaradır. Hidayət məfhumu təvəkkül, namaz və oruc kimi fərd üçün faydalı olan ibadətlərlə yanaşı, qonşuya xeyirxahlıq, ailənin qayğısına qalmaq, halallıq, heyvanlara qulluq etmək kimi cəmiyyətə fayda verən sosial, ictimai ibadətləri də özlüyündə ehtiva edir.

Allah bizə kimliyindən asılı olmayaraq (məsələn:büt, günəş, ay, yəhudi alimi, xristian alimi, hətta peyğəmbərlər və s. ) başqasına ibadət etməyi qadağan etmişdir. Allahın şəriklərə, şəfaətçilərə və vasitəçilərə ehtiyacı yoxdur. Hər kəs ibadəti vasitəsilə uca Allaha yaxınlaşa bilər.

Uca Allah bu həyatı bir imtahan olaraq yaratmışdır. İnsanlara məxsus bu imtahanların müxtəlif növləri vardır. Başımıza gələnləri idarə edə bilmərik, amma reaksiyalarımızı idarə edə bilərik. Bizi uca Allaha yaxınlaşdıran və Cənnətə daxil olmağa vadar edən vasitələr arasında müsibətlərə səbr etmək ibadəti ilə yanaşı, nemətlərə şükür etmək ibadəti də yer alır. Əgər Onun əmrlərinə məhəl qoymayanların kafir olacağı, Cəhənnəmdə əzabla cəzalandırılacağı barəsində də xəbərdarlıq almışıq.

# Bəs indi mən nə etməliyəm?

İnsanın iman sınağı ağıldan istifadə edərək düşünmək, Allahın varlığının dəlillərini bilmək, Onun əmr və qadağalarına uyğun yaşamaqdır. Bu, Allahın əmrlərinə boyun əyməklə həyata keçirilir. Bu da ərəbcə “müsəlman” olmaq deməkdir.

Allah İslamı yaşadığı dövrdən, əqidəsindən və mövcud vəziyyətindən asılı olmayaraq hər kəs üçün əlçatan etmişdir. Deməli, hər kəs sadəcə olaraq aşağıdakı iman şəhadətinin mənasına bilib və dərk edib onu tələffüz etməklə müsəlman ola bilər:

“Şəhadət gətirirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şəhadət gətirirəm ki, Muhəmməd Allahın Elçisidir. ”

Yaradılış qayəvin arxasınca getməyin, həqiqətə sarılmağın və Yaradanın varlığını etiraf etməyin vaxtı deyilmi?

CONTENTS


İSLAMA GİRİŞ

MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)

MƏSIH İSA IBN MƏRYƏM ALLAHIN ELÇISIDIR

İSLAMDA ALLAH ANLAYIŞI

QURAN

HƏYATIN MƏQSƏDİ NƏDİR?

İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR

İSLAMDA QADIN HÜQUQLARI

QURANIN ELMİ MÖCÜZƏSİ

İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR

AZERBIJANI | (07/10) مفاهيم خاطئة حول الإسلام | FREE COPY

Həqiqətən, İslam dini haqqında nə bilirsən?!

Dar Al Ber Society
جمعية دار البر
www.daralber.ae

الإمارات
THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام


تصريح رقم:
(2017/139)
دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department


www.islamicic.com

CONTENTS































# MÜQƏDDİMƏ

İslam dini yer üzündə ən geniş yayılmış dinlərdən biri olsa da, eyni zamanda bir çox insanların yanlış anladığı dinlərdən biridir. Bu bir çox siyasi, iqtisadi səbəblərə, o cümlədən, irqçi mediada yayılan İslam haqqında yanlış faktlara və yanlış təsəvvürlərə görədir. İslamı və müsəlmanları anlamağın açarı cəmiyyətdə üstünlük təşkil edən bu tip fikirləri rədd etməklə yanaşı hər bir mövqeyi İslam hüququnun təlimlərinə əsaslanan düzgün qaynaqlardan əldə etməkdir.

## Birinci yanlış fikir - “Müsəlmanlar yaxşı və nəcib dəyərləri qeyri-müsəlmanlarla paylaşmırlar”

Bəzi insanlar islami dəyərlərin insanların qəbul edib və əməl etdikləri bir çox nəcib dəyərlərlə müəyyən dərəcədə uyğun olmadığını iddia edirlər. Bu iddialar həqiqətdən və ədalətdən uzaqdır. Bunun səbəbi müsəlmanların ümumbəşəri və nəcib dəyərlərə riayət etməsidir. Məsələn:

*Peyğəmbər (ona Allahın salamı olsun) buyurdu :“Sizin ən yaxşılarınız ən gözəl əxlaqa malik olanlardır.” Əhməd rəvayət etmişdir (24204)*

- Dürüst və ədalətli olmaq.
- Vədinə xilaf çıxmamaq.
- İnsanları dinə inanmağa məcbur etməmək.
- Valideynlərinizə, qohumlarınıza, qonşularınıza və sizdən böyüklərə hörmət etmək.
- Xeyriyyəçi, səxavətli olmaq. Kasıblara və yoxsullara qayğı göstərmək.
- Qonşuya yaxşılıq etmək.
- Heç kimə yalan danışmamaq, aldatmamaq, təhqir etməmək, qeybət etməmək.

Müsəlmanlara cəmiyyətlərinə müsbət töhfələr verməları, daima ən gözəl xüsusiyyətlərə, ən gözəl sözlərə və əməllərə sahib olmaları əmr edilmişdir.

## İkinci yanlış fikir 2 – “Müsəlmanlar “Allah” adlı yeni Tanrıya ibadət edirlər”

“Allah” ləfzi ərəb dilində Yaradana məxsus olan bir kəlimədir. Böyük məna daşıyan bu kəlimə yalnız tək olan Allaha şamil edilir. Bu, ərəb xristianları və yəhudilərin öz tanrılarına və məbudlarına müraciət etdikləri zaman ifadə etdikləri eyni kəlimədir.

*Müsəlmanlar özlərindən əvvəlki peyğəmbərlərin Nuhun, İbrahimin, Musanın və İsanın ibadət etdikləri Allaha ibadət edirlər.*

Müsəlmanlar, yəhudilər və xristianlar eyni Yaradana inanırlar. Lakin onların arasında olan Allah anlayışı tamam fərqlidir. Məsələn, müsəlmanlar Allahın şərikləri olduğunu və ya onun “üçlüyün” bir hissəsi olduğunu inkar edir, kamilliyi yalnız pak olan Allaha aid edirlər.

CONTENTS


























## Üçüncü yanlış fikir - İslam terroru təşviq edir

Qərəzli media hər bir müsəlman döyüşçünü ədalətli və ya qanuni bir səbəbdən döyüşüb-döyüşməməsindən, təcavüzə və ya hücuma məruz qalıb-qalmamasından asılı olmayaraq, onu həmişə terrorçu kimi təqdim edir.

İslam açıq-aydın bildirir ki, hətta müharibələr zamanı günahsız, döyüşməyən insanları hədəf almaq olmaz! Bu, iyrənc və qadağan olunmuş bir hərəkətdir. İslam təlimlərinin bizə aşıladığı budur ki, müharibə vaxtı hər bir günahsız insanı döyüş meydanından kənarda saxlamaq lazımdır. Ehtiyac olmadan əkin sahələrini məhv etmək haramdır. Bütün bunları nəzərə alaraq terrorla işğala qarşı qanuni müqaviməti bir-birindən fərqləndirməyimiz vacibdir. Çünki, onların arasındaki fərq ağ və qara arsındaki fərq kimidir.

Qurani-Kərim məsum bir insanın öldürülməsini Allah tərəfindən qadağan edildiyini bizə bildirir. Bunun təhlükəli bir əməl olduğunu açıq şəkildə izah edərək insan həyatının nə dərəcədə əhəmiyyətli olduğunu vurğulayır.

***"Buna görə də İsrail oğullarına yazıb buyurduq ki, kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar. "***

***Maidə surəsi, 32-ci ayə***

## Dördüncü yanlış fikir - İslam qadına zülm edir

İslamda kişi və qadın uca Allah qarşısında mükafat almaq, cəzalanmaq və əməllərinə cavabdeh olmaq baxımından eyni hüquqa malikdir. Çünki, təqvadan başqa heç kəsin Allah yanında heç kəsdən üstünlüyü yoxdur.

***"Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır."***

***Hucurat surəsi, 13-cü ayə***

Bu ayə dəlildir ki, insan həqiqi məqam və şərəfi yoxsul və ya zənginliyinə, qara və ya ağlığına, cinsiyyətinə görə deyil, təqva və gözəllik baxımından ən uca söz olan "lə iləhə illəllah" kəlimasini təsdiq etməklə əldə edir.

İslam dini ədalətlilik prinsiplərini əsas tutaraq qadınlara kişilərlə yanaşı işləmək hüququ, həyat yoldaşı seçmə, boşanma, təhsil alma və vərəsəlik hüququ vermiş və bu prinsiplərlə onları islamda hörmət və dəyər sahibi etmişdir.

Təəssüf doğuran və üzücü olan odur ki, bəzi cəmiyyətlərdə müsəlman qadınlara zülm edilir. Bu, İslamın qüsuru və ya onun təlimlərinə görə deyil. Əksinə, bir sıra ölkələrdə olan mövcud cəmiyyətlərin bəzi adət və ənənələrinin qüsurudur. İslam bunu rədd edir.

***Allah insanları kişi və qadın olmaqla iki fərqli xüsusiyyətə, təbiətə məxsus varlıq kimi yaratmış və bu fərqliliklərini nəzərə alaraq onların hər biri üçün fərqli rol və vəzifələr təyin etmişdir.***

CONTENTS































## Beşinci yanlış fikir - “Quran tarix kitabı və ya şeir kitabından başqa bir şey deyil”

Qurani-Kərim uca Allahın kəlamıdır. Cəbrayıl (ona Allahın salamı olsun) vasitəsilə Muhəmməd peyğəmbərə nazil olmuşdur. O, haqq ilə batil arasındakı fərqi ayırd etməklə yanaşı bütün bəşəriyyətin xoşbəxt olduğu hidayət prinsiplərini özündə ehtiva edir.

Quran faydalanmağımız üçün bizə keçmiş peyğəmbərlərin, eləcə də qövmlərinin həyatından dərslər və ibrətlər verir.

*Quranın bizdın nə tələb etdiyini bilməyin ən yaxşı yolu onu özümüz üçün oxumağımızdır.*

Həmçinin Quran bizə Uca Allahdan, özümüzdən və yaradılışımızın məqsədindən xəbər verir ki, biz (Allahı tanıyaq) yalnız Ona ibadət edək.

Həqiqətən də Allah bizi əbəs yerə yaratmayıb və bizi özbaşına buraxmamışdır. Qulun imanının imtahanı onun öz ağlını, iradəsini, düşüncəsini və bunların hamısını işlədərək Yaradan, Hikmət sahibi olan bir olan ilaha doğru yol tutmağındadaır. O ilah ki, ona haqqın bəyan olması üçün nişanələr (əlamətlər) göndərmişdir. Bu nişanələrin ən əzəmətlisi isə (Peyğəmbər vasitəsilə) ona Quran göndərməsidir.

Quranın özündə çoxlu möcüzələr var. Bizim onun yerin və göylərin Rəbbi tərəfindən nazil olmasına heç bir şübhəmiz yoxdur.

## Altıncı yanlış fikir – “Hicab zülmdür”

Müsəlman qadınlara bədənlərini təvazökar libasla örtmələri və zinətlərini naməhrəm kişilərin qarşısında nümayiş etdirməmələri əmr edilmişdir.

Hicab təkcə zahiri görünüş üçün deyil. Hicab, həmçinin, insanın kimliyini, xarakterini, xüsusiyyətlərini bəyan edən bir ibadətdir. Gözəl ünsiyyət , təvazökarlıq, yüksək əxlaqi keyfiyyətlərə sahib olma və bütün müsbət xüsusiyyətlər möhtərəm(əməlisaleh) insanların bir növ mənəvi hicabıdır.

Hicab taxmağın mənəvi baxımdan bir çox üstünlükləri və fiziki cəhətdən faydaları olmasına baxmayaraq, müsəlman qadınların hicab taxmasının əsas səbəbi onun uca Allah tərəfindən əmr olunmasıdır. Allah Öz bəndələri üçün nəyin daha yaxşı olduğunu bilir.

Hicab qadının xarıcı görünüşünü deyil, daxili mənəvi gözəlliyini vurğulamaqla onu dəstəkləyir. Qadınlara təvazökarlıqlarını və həyasını qorumaqla cəmiyyətin fəal üzvü olmaq azadlığı verir.

Hicab zülmün, təzyiqin və ya repressiyanın simvolu deyil. Hicab qadınları öz nəfslərinə tabe olan kişilərin baxışlarından, təhqiredici sözlərindən, mənəvi təzyiqlərindən qoruyan bir qalxandır. Buna görə də müsəlman qadını görəndə bilin ki, o, ağlını və zəkasını deyil, fiziki görünüşünü örtür.

CONTENTS


























## Yeddinci yanlış fikir - "Müsəlman olanlar yalnız ərəblərdir"

Bu belə deyil. Çünki, ərəblər müsəlmanların cəmi 20 %-ni təşkil edir. Yəni, müsəlmanların 80%-i ərəb dilini bilmir. Məsələn, İndoneziya və Hindistanda müsəlmanların sayı ərəb müsəlmanların sayından çoxdur. İslam dini bir insanın irqinə və ya rənginə görə digərindən üstün olmadığını, irqçiliyə qarşı mübarizə apardığını və irqçiliyin qəti əleyhinə olduğunu bizə öyrədir.

İslamın bütün bəşəriyyət üçün universal bir mesajı var. Hər kəs tək Allah ibadət etməyincə, Onun göstərdiyi yolla getməyincə əsl səadətə çata bilməz və hec vaxt uğur qazanmaz.

## Səkkizinci yanlış fikir - "Cihad terrordur"

Cihadın mahiyyəti Allahın razı qalacağı şəkildə Allah yolunda mübarizə və fədakarlıq etməkdir. Cihad kəlməsi mübarizə, səbir mənasındadır. O, qəlblə, dillə, əzalarla, nəfslə, şeytanla və düşmənlərlə mübarizə olduğu üçün bütün yaxşı əməlləri, xeyriyyə məqsədləri üçün xərcləmələri özündə ehtiva edir.

Cihadın ən üstün mərtəbəsi hərbi cihaddır ki, bu da cəmiyyətin təhlükəsizliyini, əmin amanlığını qorumaq, təcavüzün qarşısını almaq, hüquqların və ədalətin bərqərar olması üçün icra olunur. Cihad şəraitdən asılı olaraq müdafiə və ya hücum xarakterli ola bilər.

## Doqquzuncu yanlış fikir – "Müsəlmanlar Muhəmmədə və ya "Ay" tanrısına ibadət edirlər"

*İslamın təməl prinsiplərindən biri də bütün elçilərə və peyğəmbərlərə hörmət və ehtiram göstərməkdir. Lakin, onlara hörmət etmək və sevmək, onlara ibadət etmək demək deyil.*

Müsəlmanların Muhəmməd Peyğəmbərə (ona Allahın salavatı və salamı olsun) ibadət etmələri ilə bağlı yanlış təsəvvürə gəlincə, bu, tamamilə həqiqətə ziddir.

Bunu Peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) kəlamı ilə təkzib etmək asandır: "Xristianların Məryəm oğlu Məsihi təriflədikləri kimi, məni tərifləməyin. Mən yalnız bir bəndəyəm, ona görə də mənə Allahın qulu və elçisi deyin. " Səhih əl-Buxari (3445)

Buna bənzər bir iddia da var ki, bu da həqiqətdən kənar bir fikirdir. Bu iddia müsəlmanların "ay tanrısına" ibadət etmələri iddiasıdır. İslamda aya, günəşə və ya uca Allahdan başqa hər hansı bir şeyə ibadət etmək şirk sayılır.

*"Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin. "*

*Fussilət surəsi, 37-ci ayə*

İslam aləmlərin Rəbbi olan Allahın tam kamilliyini, mütləq böyüklüyünü və təkliyini təsdiq edir. O, ədalətli və mərhəmətli Allahdır. Yalnız Ona ibadət etmək Quranda və Peyğəmbərin kəlamında qeyd edildiyi kimi İslamın özəyidir.

CONTENTS






















## Onuncu yanlış fikir - "İslam məcburi evliliyə icazə verir"

Nikah mərasimləri dünyanın müxtəlif ölkələrində insanların adət-ənənələrinə uyğun şəkildə təşkil olunur.

Məcburi nikah yalnız müsəlmanlarla məhdudlaşmasa da, bu məsələ pis niyyətli insanlar tərəfindən İslamla əlaqələndirilib.

İslamda həm kişi, həm də qadın öz həyat yoldaşını seçmək və ya rədd etmək hüququna malikdir.

## On birinci yanlış fikir – "İslam insanları ona inanmağa məcbur edir"

İslam dinini təbliğ etmək və bütün dünyaya yaymaq müsəlmanların vəzifəsi olsa da, heç kəs İslamı qəbul etməyə məcbur edilə bilməz. İslamı qəbul etmək, Allaha iman gətirmək, Ona itaət etmək səmimi qəlbdən, könüllü və möhkəm qəlb etiqadı ilə olmalıdır. Ona görə də heç kəs İslamı qəbul etməyə məcbur edilə bilməz.

*Allah Təala buyurur: "Də məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. "*

*əl-Bəqərə surəsi, 256-cı ayə*

Aşağıdakıları yadda saxlayın:

İndoneziya ən çox müsəlman əhalisinə malikdir. Lakin, İslam dini orada heç bir qan tökülmədən yayıldı.

Əsrlər boyu Ərəbistan yarımadasının mərkəzində yaşayan kopt xristianların sayı 14 milyona çatıb!

• Bu gün yer üzündə ən sürətlə yayılan din İslam dinidir.

• Haqsızlıqla, zülmlə mübarizə aparmaq, dünyada ədaləti bərqərar etmək savaş və cihad üçün sadə bir səbəb olsa da, insanları İslamı qəbul etməyə məcbur edən ədalətli və qanuni səbəblərdən biri deyil.

• Müsəlmanlar İspaniyada təxminən səkkiz əsr hökmranlıq etdilər və heç vaxt insanların dinini İslama çevirməyə məcbur edilməsinə icazə vermədilər.

## Nəticə

İslamı etibarsız və bu sahəyə aid olmayan mənbələrdən öyrənmək bir çox yanlış təsəvvürlərə və düşüncələrə səbəb olur. İslamın düzgün, orijinal mənbələrini yoxlayana qədər bu cür yanlış təsəvvürlərə inanmağa tələsməyin. Dünya əhalisinin dörddə birindən çoxunun qəbul etdiyi belə bir din qərəzli medianın göstərdiyi qədər çirkin ola bilməz.

İslam sülh və mərhəmət dinidir. Mesajları haqqdır.

Mesajı mühakimə edilməzdən əvvəl diqqətlə öyrənilməli, dərindən məntiqlə düşünülməlidir.

HOTLINE
+971 56 204 2045
islamicicdxb
islamicic.com   info@islamicic.com   +971 4 355 5223
DOWNLOAD AZER FLYER
www.iicdxb.com/azer

CONTENTS


İSLAMA GİRİŞ
MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)
MƏSİH İSA İBN MƏRYƏM ALLAHIN ELÇİSİDİR
İSLAMDA ALLAH ANLAYIŞI
QURAN
HƏYATIN MƏQSƏDİ NƏDİR?
İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR
İSLAMDA QADIN HÜQUQLARI
QURANIN ELMİ MÖCÜZƏSİ
İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# İSLAMDA QADIN HÜQUQLARI

AZERBIJANI (08/10) حقوق المرأة في الإسلام FREE COPY

***HÖRMƏTLİ XEYİRXAH, ƏZİZ***


جمعية دار البر
Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

*Your Path To Peace..*

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم:
(2017/139)

دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS


























# MÜQƏDDİMƏ

*“.. Onların da (ərləri, həyat yoldaşları) üzərində hüquqları vardır”*

*Qurani-Kərim 2:228*

İslam dininə mənsub olan qadınların əsarət altına alındığı, alçaldıldığı, zülm edildiyinə güman edilir. Bəs doğrudanmı bu belədir? Görəsən milyonlarla müsəlman əsarət altına alınmış insanlardır, yoxsa bu yanlış fikirlər qərəzli medianın uydurmasıdır?

İslam dinində qadın hüquqları 14 əsrdən çoxdur ki mövcuddur. Hansı ki, qərbdə qadınlar həmin hüquqlara təzəlikcə, sahib olublar. 1930-cu illərdə Enni Besant belə bir faktı qeyd edirdi:

“Xristian İngiltərə qadının mülkiyyət hüququnu artıq tanıdı. İslam isə bu hüququ bütün dövrlərdə tanımışdır. İslamın qadınların ruhunun olmadığını təbliğ etdiyini söyləmək böhtandır.” (Muhəmmədin həyatı və təlimləri, 1932).

Kişilər və qadınların hamısı bir şəxsdən, Adəm Peyğəmbərdən (ona Allahın salamı olsun) törəyib. Onların hamısından yalnız ədalət və gözəl rəftar qəbul edir.

# MÜKAFAT VƏ MƏSULİYYƏTDƏ BƏRABƏRLİK

Kişilər və qadınlar eyni şəkildə Allaha ibadət edirlər. Yəni, eyni Allaha ibadət edirlər və eyni ibadətləri yerinə yetirirlər. Eyni kitaba tabe olurlar və eyni inanca sahibdirlər. Allah (ərəbcə bütün yaradılmışların yeganə və həqiqi Allahı deməkdir) bütün insanları ədalət və insafla mühakimə edir. Uca Allah Qurani-Kərimin bir çox ayələrində kişi və qadın arasında ədalətli rəftar və mükafatı vurğulamışdır.

“Allah mömin kişilərə və mömin qadınlara (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir.”

**Qurani-Kərim 9:72**

“İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz (hamınız) birbirinizdənsiniz.”

**Qurani-Kərim 3:195**

Ayələr göstərir ki, mükafat insanın cinsinə görə deyil, əməllərinə görə verilir. Cinsiyyəti insanın necə mükafatlandırılmasında və mühakimə olunmasında heç bir rol oynamır.

CONTENTS

































İslamı başqa dinlərlə müqayisə etsək görərik ki, İslam dini cinsiyyətindən asılı olmayaraq insanlar arasında ədaləti təmin edir.

Məsələn, İslam dini Həvvanın (qadağan olunmuş ağacdan yediyinə görə)günahının Adəmdən daha çox olması fikrini rədd edir. Əksinə, İslama görə Adəm və Həvva hər ikisi günah etdilər. Allah onların tövbəsini qəbul etdi və onları bağışladı.

## ELM(BİLİK)ƏLDƏ ETMƏKDƏ BƏRABƏR HÜQUQLULUQ

Həm kişilər, həm də qadınlar elm əldə etməyə eyni dərəcədə təşviq edilir. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) buyurur: “Elm öyrənmək hər bir müsəlmana vacibdir!”

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) zamanında müsəlman olan qadın alimlər də vardı. Onlardan bəziləri onun ailəsindən, bəziləri səhabələrindən və ya qızlarından idi. Onların ən seçiləni Peyğəmbərin ( ona Allahın salavatı və salamı olsun) həyat yoldaşı Aişə (Allah ondan razı olsun) idi. Şəriətin dörddə biri onun vasitəsilə nəql olunub.

Digər qadınlar da fiqh üzrə böyük alim idilər və onların məşhur kişi alim tələbələri vardı.

## HƏYAT YOLDAŞI(ƏR) SEÇMƏKDƏ BƏRABƏR HÜQUQLULUQ

İslam dini qadına hörmətlə yanaşmış və onlara ərə getdikləri halda öz soyadını saxlamaqla ər seçmək hüququ vermişdir. Buna baxmayaraq, bir çox insanlarda belə bir təəssürat yaranır ki, valideynlər qızlarını zorla ərə verirlər. Bu, adət halını almış bir təcrübədir və islamda heç bir əsası yoxdur. Əslində, qadağandır.

Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) zamanında bir qadın onun yanına gəlib dedi: “Atam məni əmim oğlunun mövqeyini qaldırmaq üçün zorla onunla evləndirdi. ” Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) qızın atasını çağırtdırdı və onun hüzurunda qıza evli qalmaq və ya nikahı ləğv etmək hüququ verdi.

O dedi: “Ey Allahın elçisi, atamın etdiklərini qəbul edirəm. Amma mən qadınlara göstərmək istədim ki, kişilər qadınları zorla evləndirə bilməz.”

CONTENTS








# BƏRABƏR, LAKIN FƏRQLI

Kişilər və qadınlar ümumi prinsiplərdə bərabər hüquqa malik olsalar da, onlara verilən xüsusi haqq və öhdəliklərdə eyni deyil. Kişi və qadın bir-birini tamamlayan hüquq və vəzifələrə malikdirlər.

Xarici və daxili anatomik fərqlərdən başqa, elm adamları bilirlər ki, kişi və qadın beyinləri arasında dilin, məlumatın və duyğuların ötürülməsində bir çox fərqlər var.

Harvard Universitetinin sosiobiologiya eksperti Edvard O. Vilson deyir: "Qadınlar şifahi bacarıqlar, empatiya və sosial münasibətlərdə kişilərdən daha üstündür. Kişilər isə müstəqillik, hökmranlıq, məkan və riyazi bacarıqlarda, aqressivlikdə və digər xüsusiyyətlərdə daha da üstün olmağa meyllidirlər."

Hər iki cinsə eyni münasibət bəsləmək və onların fərqlərinə məhəl qoymamaq ağılsızlıqdır. İslam dini kişi və qadının bir-birini tamamlayan, lakin fərqli rollara malik olduğunu öyrədir. Çünki, bu onların təbiətinə daha uyğundur.

Allah buyurur:

*"oğlan qız kimi deyildir"*

**Qurani-Kərim 3:36**

*Yaradan (Allah) Lətif və (hər şeydən) Xəbərdar olduğu halda, ola bilərmi ki, O, (gizlində və aşkarda olanları) bilməsin?*

**Qurani-Kərim 67:14**

# AİLƏ BÖLMƏSİ

Allah kişi və qadını fərqli, yəni, unikal rola malik, xüsusi bacarıqlar və məsuliyyətlərə sahib bir varlıq kimi yaratmışdır. Bu fərqlər üstünlük və ya aşağı səviyyəliik demək deyil. Bunlar ixtisaslaşmanın sübutu kimi qəbul edilir. İslamda ailə xüsusi əhəmiyyət kəsb edir. Kişi ailənin maddi rifahına cavabdehdir.

Qadın isə onun fiziki, təhsil, mənəvi rifahına töhfə verir və bu onların qarşılıqlı öhdəliklərində rəqabət əvəzinə əməkdaşlığı təşviq edərək güclü ailələrin, sonra da güclü cəmiyyətlərin yaranmasına zəmin yaradır.

Həmçinin, emosional baxımdan qadın və kişi biri digəri olmadan xoşbəxt həyat sürə bilməz. Allah belə buyurmuşdur:

*"Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız."*

**Qurani-Kərim 2 :187**

Geyim rahatlıq, istilik və təhlükəsizlik təmin etməklə yanaşı, insana gözəl görünməni də təmin edir. İslamda da ər-arvad münasibətləri belə müəyyən edilir.

CONTENTS






















# AİLƏ MÜNASİBƏTLƏRİNDƏ SEVGİ VƏ QAYĞI

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) kişiləri xanımları ilə ən gözəl şəkildə rəftar etməyə çağırır: “Sizin ən xeyirliniz ailəsinə ən xeyirli olandır. ”

*“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir.”*

Qurani-Kərim 30:21

Peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) həyat yoldaşı Aişədən (Allah ondan razı olsun) Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) evdə olarkən necə davrandığını soruşduqda belə cavab verdi: “Sizdən biriniz evinizdə necədirsə, o da elə idi. Lakin, o daha dözümlü və səxavətli idi. Adi ev işlərində xanımlarına kömək əlini uzatmağa hazır idi. Özü paltar tikər, ayaqqabılarını düzəldər, ümumiyyətlə, xanımlarının gördüyü işlərə kömək edərdi.

# YÜKSƏK MÖVQEDƏ OLAN ANALAR VƏ QIZLAR

Ana övladına olan ən böyük sevgi və qayğısını, xüsusilə, yeni doğulduğu vaxtlarda büruzə verir. Şübhə yoxdur ki, cəmiyyətin uğurları anaların səyi nəticəsindədir. Ona görə də yalnız İslam dinində olan dürüstlük sayəsində, onlar şərəfə və yüksək məqama malikdirlər.

Uca Allah Quranda buyurur:

*“Biz insana ata-anasına yaxşılıq etməyi (valideynlərilə gözəl davranmağı, onlara yaxşı baxmağı) tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. ”*

Qurani-Kərim 15:46

Bir dəfə Peyğəmbərdən belə soruşuldu: “Ey Allahın elçisi, mən kimə qayğı göstərməliyəm?” Peyğəmbər dedi: “Anana!”. Kişi iki dəfə soruşdu:”Sonra kimə?” Peyğmbər eyni cavabı verdi. Yalnız dördüncü dəfə:“Sonra atana.”- deyə cavab verdi

Mükafat təkcə analara yaxşı münasibətə görə verilmir. Faktiki olaraq, İslam dini oğlan övladı üçün deyil də, qız övladının tərbiyəsinə görə xüsusi mükafat təyin etmişdir.

CONTENTS






















Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) demişdir: "Allah kimə iki qız övladı verərsə və onlarla gözəl rəftar edərsə, onlar onun(valideynin) Cənnətə girməsinə səbəb olar. "

## NƏTİCƏ

İslamdan əvvəlki dövrlərdə qadınlar utanc verici bir varlıq sayılırdı. Gənc, körpə qızlar diri-diri basdırılır, fahişəlik tüğyan edirdi. Boşanma haqqı yalnız kişidə idi. Miras yalnız güclülərə verilirdi. Zülm və ədalətsizlik hökm sürdüyü üçün İslam dini gəlib bu əməlləri ləğv etdi.

Hal-hazırda da inkişaf etmiş ölkələrdə qadınlara nəinki bərabər əmək haqqı, hətta dəyər və hörmət belə verilmir. Amma İslam onları qiymətli hesab edir. Onlara nifrət bəsləmək, onları təhqir etmək olmaz.

Bəzi Yaxın Şərq ölkələrində və ya müsəlman ailələrində qadınlara qarşı pis rəftarlara gəlincə, bu, İslamın buyurduğu əməl deyil. Lakin, bəzi müsəlmanların etdiyi yanlış əməllərdir. Əgər islam dini qadına qarşı zülm edən bir din olsaydı onda bu qədər qadın İslam dinini öz istəyi ilə niyə qəbul edirdi?

Sözlərimi kişiləri və qadınları gözəl şəkildə yaradan, onlara ruzi verən, həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allahın kəlimələri ilə bitirirəm:

Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbrli kişilər və səbrli qadınlar, (Allaha) baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və (ismətlərini) qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır.

əl-Əhzəb 35

CONTENTS




# QURANIN ELMİ MÖCÜZƏSİ

AZERBIJANI | (09/10) العلوم في الإسلام | FREE COPY

*"(Quranın) haqq olduğu onlara aydın olana qədər Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik"*

Fussilət surəsi, 53-cü ayə



Dar Al Ber Society جمعية دار البر www.daralber.ae

الإمارات THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم: (2017/139)

دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS






İslamın kitabı olan Quran Allahdan bəşəriyyətə nazil olan və peyğəmbərlərə vəhylə verilən sonuncu müqəddəs kitabdır.

Quran (1400 il bundan əvvəl nazil olmuşdur) ilk növbədə elmi kitab olmasa da, texnologiya və elmi biliklərin inkişafı nəticəsində yeni kəşf edilmiş elmi həqiqətlərə dair göstərişləri ehtiva edir. İslam elmi təfəkkür və araşdırmalara təşviq edir. Çünki, yaradılışın mahiyyətini dərk etmək insanlara öz Yaradanını daha da izzətləndirməyə, Onun gücünü və hikmətini bəyan etdirməyə imkan verir.

Quranın nazil olması elmin başlanğıc dövrünə təsadüf edir. Həmin dövrdə nə teleskop, nə mikroskop, nə də müasir texnologiyaya bənzər bir cihaz kəşf edilməmişdi. İnsanlar günəşin Yer ətrafında fırlandığına və səmanın isə yerin guşələrindəki sütunlarla asıldığına inanırdılar. Belə bir vaxtda astronomiyadan biologiyaya, geologiyadan zoologiyaya qədər bir çox elmi həqiqətləri açıq-aydın istinadlarla özündə ehtiva edən Quran nazil oldu.

Quranda olan bir çox elmi həqiqətlərə dair nümunələr aşağıdakılardır:

## 1 Həyatın mənşəyi

Su bütün həyatın mənbəyi adlandırılır. Bütün canlı orqanizmlər hüceyrələrdən ibarətdir. Biz indi bilirik ki, hüceyrələrin əksəriyyəti sudan ibarətdir.

*“Hər bir canlını sudan yaratdığımızı görmürlərmi?”*
Quran 21:30

Bu yalnız mikroskopun ixtirasından sonra kəşf edilmişdir. Ərəbistan yarımadasının səhralarında, kiminsə yerdəki bütün canlıların sudan əmələ gəldiyini təxmin edəcəyini düşünmək ağılsızlıq olmazdımı?

## 2 İnsanın embrional inkişaf mərhələləri

Allah insan rüşeyminin inkişaf mərhələlərindən belə bəhs edir:

*“Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu (Adəm övladını) nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik. ”*
əl-Muminun surəsi, 23:12-14

Ərəbcə “əlaqə” sözünün üç mənası var: parazit, asılmış şey və qan laxtası. “Mudğa” çeynənmiş maddə deməkdir.

Embrioloqlar qeyd etmişlər ki, dölün formalaşmasını təsvir edərkən bu terminlərdən istifadə etmək daha dəqiq mənanı ehtiva edir. Onun (Quranın qeyd etdiyi) inkişaf mərhələləri indiki elmi anlayışımızla tam uyğundur.

İnsan rüşeymlərinin inkişaf mərhələləri, təşkili və təsnifatı haqqında iyirminci əsrə qədər çox az məlumat var idi.

CONTENTS






Bu da o deməkdir ki, VII əsrdə Quranda olan insan embrionlarının təsviri hər hansı bir elmi biliklərə əsaslana bilməzdi.

## 3 Kainatın genişlənməsi

Astronomiyanın hələ inkişaf etmədiyi bir dövrdə Quranda aşağıdakı ayə mövcud idi:

*"Biz göyü qüdrətlə yaratdıq və Biz onu genişləndiririk. "*

əz-Zəriyət 51:47

Əvvəlki ayədə nəzərdə tutulan mənalardan biri də Allahın kainatı (yəni səmanı) genişləndirməsidir. Digər mənalar isə budur ki, Allah kainatı qoruyur və ixtiyarı onun əlindədir. Bu da doğrudur.

Kainatın genişlənməsi (misal üçün planetlərin bir-birindən uzaqlaşması) faktı ötən əsrdə elmə məlum olmuşdur. Fizik Stiven Hokinq "Zamanın qısa tarixi" kitabında yazırdı: "Kainatın genişlənməsinin kəşfi XX əsrin ən böyük intellektual inqilablarından biri idi."

Quran teleskop icad edilməmişdən əvvəl də kainatın genişlənməsinə işarə edirdi!

## 4 Dəmirin yer üzərinə enməsi

Dəmir bu planetə kosmosdan gəldiyinə görə yerə xas bir əşya hesab olunmur. Elm adamları milyardlarla il əvvəl yer kürəsinin uzaq ulduzların partlaması nəticəsində ayrılmış özündə dəmir daşıyan meteoritlərlə toqquşduğunu kəşf etmişlər.

Allah "nazil etdik" sözlərindən istifadə edir. Dəmirin kosmosdan yerə düşən meteoritlər vasitəsilə endirilməsi ilə bağlı bir sıra güclü elmi əsaslı fikirlər mövcuddur. Bu da VII əsrdə elmə məlum olmayan bir məsələ idi.

*"Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də icad (nazil) etdik"*

## 5 Göyün qorunması

Yer və onun sakinlərinin günəşin öldürücü şüasından, eləcə də kosmosun dondurucu soyuğundan qorunmasında səmanın həlledici rolu vardır.

Uca Allah bizi bir ayədə göyə baxmağa dəvət edir:

*"Göyü mühafizə olunan bir tavan etdik. Onlar isə oradakı dəlillərimizdən üz çevirirlər. "*

Quran 21:32

Quranda səmanın mühafizəsi Allahın qüdrətinin əlaməti olaraq qeyd edilir. Lakin, onun qoruyucu olması yalnız iyirminci əsrdə aparılan elmi araşdırmalar nəticəsində aşkar edilmişdir.

CONTENTS

































## 6 Dağlar

Allah dağların əhəmiyyətli bir xüsusiyyətinə diqqət etməyimizi buyurur:

*“Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?!”*
Quran 78:6-7

Qurani-Kərim dağların dərin köklərini “əvtədə”(dirək) sözü ilə dəqiq təsvir edir. Məsələn, Everest dağının yerdən təxminən 9 kilometr hündürlüyü var. Kökü isə 125 kilometrdən çox dərinlikdədir.

Dağların dərin, dirək kimi köklərə malik olması faktı 20-ci əsrin əvvəllərində plitə tektonikası nəzəriyyəsinin inkişafından sonra elmə məlum oldu. Uca Allah Quranda da (16:15) dağların yer üzünü sabitləşdirməkdə rolu olduğunu bildirmişdir: “. . . silkələməsin deyə” Bu, alimlər tərəfindən yenicə başa düşülən bir şeydir.




## 7 Günəşin orbiti

1512-ci ildə astronom Nikola y Kopernik günəşin günəş sisteminin mərkəzində hərəkətsiz olması və planetlərin onun ətrafında firlanması nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyə XX əsrə qədər astronomlar arasında geniş yayılmışdı.

*“Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Onların hər biri öz orbitində üzür”*
Quran 21:33

Günəşin stasionar deyil, “Süd yolu” qalaktikamızın mərkəzi ətrafında, öz orbitində hərəkət etməsi artıq sübut olunmuş bir həqiqətdir.

## 8 Okeanda daxili dalğalar

Əvvəlki dövrlərdə dalğaların yalnız okeanın səthində meydana gəldiyinə inanılırdı. Bununla belə okeanoloqlar aşkar etmişlərlər ki, səthin altında insan gözünə görünməyən və yalnız xüsusi avadanlıqlar vasitəsilə aşkar edilə bilən daxili dalğalar var.

Quran qeyd edir

CONTENTS






















*“Yaxud (onların əməlləri) zəngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud (dalğa) – zülmət üstündən zülmət örtər.”*

(Quran 24:40)

Bu təsvir heyrətamizdir. Çünki, 1400 il əvvəl okeanın dərinliklərində olan daxili dalğaları aşkar etmək üçün xüsusi bir avadanlıq yox idi.

## 9 Yalan danışmaq və hərəkət etmək

Muhəmməd peyğəmbərin dövründə zalım bir qəbilə başçısı yaşayırdı. Allah onu xəbərdar etmək üçün bir ayə nazil etdi:

*“Xeyr! Əgər son qoymasa, (Biz onun) kəkilindən tutacağıq. Yalançı, günahkar kəkilindən”*

Quran 96:15-16

Allah bu insanı yalançı adlandırmır. Əksinə, onun alnını (beynin ön hissəsini) “yalançı” və “günahkar” adlandırır. Ona bu əməllərinə son qoymağı əmr edir.

Bir çox elmi araşdırmalar beynimizin ön hissəsinin həm yalan danışmağa, həm könüllü hərəkətə, həm də günaha cavabdeh olduğunu müəyyən etdi. Bu xüsusiyyətlər iyirminci əsrdə hazırlanmış tibbi görüntüləmə avadanlıqları ilə kəşf edilmişdir.

## 10 Bir-birinə qarışmayan iki dəniz

Dənizlər haqqında Yaradanımız belə buyurur:

*“O, qarşı-qarşıya gələn iki dənizi bir-birinə qovuşdurdu. Onların arasında maneə vardır, onu keçə bilməzlər”*

Quran 55:19-20

Səth gərginliyi adlanan fiziki qüvvə sıxlıq fərqinə görə qonşu dənizlərin sularının qarışmasının qarşısını alır. Sanki aralarında nazik bir divar varmış kimi ayrıdırlar. Okeanoloqlar bunu çox yaxın vaxtlara qədər kəşf etməmişdilər.



CONTENTS






## Muhəmməd Quranı yaza bilməzdi?

Muhəmməd peyğəmbər tarixdə oxuyub-yazmağı bacarmayan bir insan kimi tanınmışdır. Qurandakı elmi dəqiqliyi izah edə biləcəyi bir sahə üzrə də təhsil almamışdı. Bəziləri onun bu məlumatları dövrün alimlərindən əldə etdiyini iddia edə bilər.

Əgər bu məlumatlar kimdənsə köçürülmüş olsaydı, o zaman dövrün bütün yanlış elmi fərziyyələri də həmin mənbədə öz əksini tapmış olardı. Əksinə, Quranda hər hansı bir elmi, mexaniki, texniki səhv tapmaq qeyri-mümkündür.

Bəzi insanlar Quranda yeni elmi faktlar aşkar edildiyi üçün dəyişdirildiyini də iddia edə bilərlər. Bu belə ola bilməz. Çünki, Quranın öz orijinal dilində saxlanması sənədləşdirilmiş tarixi bir həqiqətdir. Bu, özlüyündə bir möcüzədir.

## Bu sadəcə təsadüfdürmü?

*"(Quranın) haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik"*

Quran 41:53

Bu yazıda yalnız potensial elmi möcüzələrə diqqət yetirilməsinə baxmayaraq, Quranda qeyd olunanlardan daha çox sayda möcüzələr mövcuddur. Tarixi möcüzələr, gerçəkləşmiş peyğəmbərliklər, bərabəri olmayan dil və ədəbi üslubları buna misal gətirmək olar. Bu üslubların dinləyiciyə təsiri və bütün bu möcüzələr təsadüf nəticəsində meydana gələ bilməz. Quran bütün bu elmi qanunların yaradan Allah tərəfindən olduğunu açıq şəkildə bizə göstərir. O, bütün peyğəmbərləri bir risalətlə yalnız tək Allaha ibadət etmək və Onun Rəsulunun təlimlərinə tabe olmaq üçün göndərən uca Allahdır.

Quran hidayət kitabıdır. Allah insanları məqsədsiz yaşamaq üçün yaratmadığını, əksinə, bizim həyatda yüksək və mənalı bir məqsədimizin olduğunu, Allahın tam nöqsansızlığını, böyüklüyünü, uca və tək oduğunu etiraf etməyi, həmçinin Ona itaət etməyi bizə öyrədir.

Allahın ayələrini, yəni Quranın ən mühüm dəlil olduğunu düşünmək və tanımaq üçün Allahın verdiyi ağıl və təfəkkür qabiliyyətini istifadə etmək hər kəsin öz ixtiyarındadır.

Quranın gözəlliyini və həqiqətini oxuyun və kəşf edin ki, uğur qazanasınız!


HOTLINE
+971 56 204 2045
islamicicdxb
islamicic.com
info@islamicic.com
+971 4 355 5223
DOWNLOAD AZER FLYER
www.iicdxb.com/azer

CONTENTS


İSLAMA GİRİŞ
MUHƏMMƏD PEYĞƏMBƏR (ONA ALLAHIN SALAVATI VƏ SALAMI OLSUN)
MƏSİH İSA IBN MƏRYƏM ALLAHIN ELÇISIDIR
İSLAMDA ALLAH ANLAYIŞI
QURAN
HƏYATIN MƏQSƏDİ NƏDİR?
İSLAM HAQQINDA DEYİLƏN YANLIŞ FİKİRLƏR
İSLAMDA QADIN HÜQUQLARI
QURANIN ELMİ MÖCÜZƏSİ
İSLAMDA ÖLÜM VƏ AXİRƏT


# İSLAMDA ÖLÜM VƏ AXİRƏT

AZERBIJANI | (10/10) الموت والآخرة في الإسلام | FREE COPY

*“Hər kəs ölümü dadacaqdır. Sonra da Bizə qaytarılacaqsınız.”*

əl-Ənkəbut surəsi, 57-ci ayə


جمعية دار البر
Dar Al Ber Society
www.daralber.ae

الإمارات
THE EMIRATES

Your Path To Peace..

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

تصريح رقم:
(2017/139)
دائرة الشؤون الإسلامية والعمل الخيري
Islamic Affairs & Charitable Activities Department

www.islamicic.com

CONTENTS






# Ölüm yaxındır

> *“Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda belə olsanız”*
>
> **ən-Nisa surəsi, 78-ci ayə**

Ölüm qaçılması mümkün olmayan, hər gün, hər saat, hətta hər dəqiqə yaxınlaşan bir reallıqdır. 2007-ci ildə CIA World Factbook-a görə hər saniyə təxminən iki nəfər ölür. Bu da hər il təxminən 57, 9 milyon insan deməkdir. Yaşından, səhhətindən, mənşəyindən, sosial vəziyyətindən, dindarlığından asılı olmayaraq hər bir insan bu qaçılmaz aqibətlə qarşılaşacaq(aqibəti yaşayacaq).

Bəs keçmişin kralları, milyarderləri və güclüləri haradadır? Hanı gözəllik, şöhrət, intellektual elita sahibləri?

# Ölümün reallığı

Ölüm bir fəlakət deyil. Ölüm sadəcə olaraq bu dünyadan axirətə keçiddir. Bu bizi həyatın məqsədi və ölümdən sonra başımıza nə gələcəyi barədə düşünməyə, fikirləşməyə vadar etməlidir.

Allah Quranda bizi yalnız Ona ibadət etmək üçün yaratdığını və bu böyük məqsədi kimin həyata keçirəcəyini görmək üçün dünya həyatını imtahana çevirdiyini bildirmişdir

> “Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.”
>
> **əz-Zəriyət surəsi, 56-cı ayə**

Allah ölümün və həyatın yaradılış məqsədini bizə belə bildirmişdir:

> “Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. “
>
> **əl-Mulk surəsi, 2-ci ayə**

İnsan cənazə pulunu öncədən toplamaqla və ya əvvəlcədən tabut seçməklə ölümə hazırlaşmır. Əksinə, insan həyatın əsl məqsədini yerinə yetirməklə, yəni yalnız Allaha ibadət etmək, Onun əmrləri ilə yaşamaq və yaxşı işlər görməklə ölümə hazırlaşmalıdır. İslamda ibadət anlayışı həyatın hər sahəsini əhatə edir və təkcə namazla məhdudlaşmır. Əksinə, Allahı razı salan hər bir iş ibadət növü sayılır və onun mükafatı dünya və ya axirətdə verilir.

CONTENTS

































# Ölüm anı

Biz hər gün bir çox ölümlərə şahid oluruq. Sakit şəkildə olan ölümü ağrısız və şiddətsiz bir ölüm hesab edirik. Lakin, bu mütləq şəkildə belə deyil. İnsan öləndə ruh bədəni tərk edir. Bədənin zahiri görünüşü ruhun vəziyyətini əks etdirmir.

"Hər kəs sabahı üçün nə etdiyinə baxsın!"

əl-Həşr surəsi, 18-ci ayə

Ruhun rahatlığı və ya narahatlığı sahibinin bu həyatdakı məqsədini necə yerinə yetirməsinin birbaşa nəticəsi olacaq. Bunun ölüm səbəbi ilə çox az əlaqəsi var.

Daha əvvəl heç olmadıqları ölkəyə getmək istəyən və birtərəfli bileti olan iki nəfəri misal çəkək. Birinci şəxs təyinata uyğun olaraq gedəcəyi ölkənin dili, mədəniyyəti və adət-ənənələrini öyrənmək üçün vaxt ayırır. O, düzgün valyuta və peyvəndləri təmin edir. Səyahət vaxtı gələndə sürprizlər olmadan istədiyi məntəqəyə gəlib çatır.

O, getdiyi məkanda təhlükəsizdir və bu halından da razıdır. Çünki, yaxşı hazırlaşıb.

Bunun əksinə olaraq, ikinci şəxs hazırlıqlara əhəmiyyət vermir və səyahət vaxtı çatana qədər heç bir hazırlıq görmədən yaşayır. O, qorxu və çaşqın halda naməlum məntəqəyə çatır. Onun hazırlıqsızlığı dəhşətli aqibətlə nəticələnir. Çünki, özü ilə gətirdiyi əşyalar heç bir fayda vermədi.

Allah Quranda axirət üçün hazırlıq görməyən şəxsi vəsf edərək belə buyurur:

***"Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə tərk etdiyim yaxşı əməlləri (indi) edəm. "Xeyr! Onun bu dedikləri ancaq (boş) bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx vardır.***

"əl-Muminun surəsi, 99-100-cü ayələr

Quranda Cəhənnəmə gətirilənlərdən onların bura niyə(hansı səbəbə görə) daxil olduqları soruşulduqda belə cavab verərlər:

***"Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik. (Batil sözlər) danışanlarla birlikdə biz də danışardıq, və Haqq-hesab gününü yalan hesab edərdik –(ölüm) yaqinliyi bizə gələnə qədər. "***

əl-Müddəssir surəsi, 43-47-ci ayələr

Hər kəs ölümü dadacaqdır. Hər birimiz bizə tanış olmayan yerə səfər edəcəyik. Beləliklə, özünüzdən soruşun görək buna hazırsınızmı?

CONTENTS




# Həyatın məqsədi

Həyat ölümlə bitən bir imtahandır. Lakin, insanın varlığının sonu demək deyil.

Ölüm gəldikdə yaxşı işlər görmək fürsəti kəsiləcək. Tövbə etmək üçün çox gec olacaq. Taleyimiz yalnız indiki həyatımızda bizə verilən fürsət müddətində etiqad etdiyimiz inanclarımız və icra etdiyimiz əməllərimizə uyğun müəyyən ediləcək. İnsanın həyatı iki hissəyə bölünür: dünya həyatında qısa qalmaq və axirətdə əbədi yaşamaq. İstənilən ağlı başında olan insan belə nəticəyə gələ bilər ki, axirətdəki əbədi səadət yer üzərindəki keçici ləzzətlərdən daha üstündür.

> "Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız?"
>
> əl-Muminun surəsi, 115-ci ayə

Allah insanı yaratdı və ona seçim azadlığı verdi. Doğru ilə yanlışı ayırd etmək üçün ağıl verməklə bizi əməllərimizdən məsul etmişdir. Əgər salehlərin mükafatlandırılacağı, günahkarların cəzalandırılacağı axirət dünyası olmasaydı, bu, uca Allahın mütləq ədalətinə zidd olardı.

Buna görə də hər bir nəfsin hesaba çəkiləcəyi bir Qiyamət gününün olması ədalət baxımından vacib şərtdir.

*"Biz heç müsəlmanları günahkarlara tay tutarıqmı? Sizə nə olub?Necə hökm verirsiniz? "*

əl-Qələm surəsi, 36-cı ayə

# Qiyamət günü

İnsanların yaşadığı müddətə etdiyi bütün əməllər qeydə alınır və qorunub saxlanılır. Necə ki bu barədə uca Allah belə buyurmuşdur:

> De:
> "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir."
>
> əl-Cümə surəsi, 8-ci ayə

*" (Hər kəsin )kitabı( qarşısına) qoyulacaq və sən günahkarların orada (yazılmış )olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! "*

əl-Kəhf surəsi, 49-cu ayə

CONTENTS
























Bütün əməllərimizin bu cür dəqiq, düzgün bir şəkildə qeyd olunmasına təəccüb edəcəyik. Çoxdan unutduğumuz əməllərimiz bizə xatırladılacaq. Necə ki uca Allah buyurur:

"Allah onları hesaba almış, onlar isə (etdiklərini) unutmuşlar... "

əl-Mücadilə surəsi, 6-cı ayə

Günahların bizim əleyhimizə yazılacağı və Allahın hüzurunda Qiyamət günü ifşa olunacağı barədə dərindən düşünmək bizi bilə-bilə hər hansı bir günah işləməkdən çəkindirməlidir.

Allah diriltmə və mühakimə etmə xüsusiyyətinə şübhə edən insanlarla bağlı belə buyurur:

"Çürümüş sümükləri kim diriltə bilər? " (deyirlər) Sonra Allah elçisinin (Allahın ona salavatı və salamı olsun) dili ilə onlara cavab verir və deyir: "De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. "

Ya sin surəsi, 78-79 cu ayə

# Cənnət və Cəhənnəm

İbadətə layiq olan tək Allaha iman gətirib yaxşı işlər görənlərin mükafatı cənnət olacaqdır.

Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) dedi ki, uca Allah belə buyurmuşdur:

"Mən saleh bəndələrim üçün heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insan ağlının dərk edə bilmədiyi nemətlər hazırlamışam. "

*"Həqiqətən də Cənnət əhli həmin gün nemətlər içində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır."*

Ya sin surəsi, 55-57-ci ayə

Lakin Allahın təkliyini inkar edənlər cəhənnəm əzabı ilə cəzalandırılacaq və orada onlara deyiləcək:

"Bu sizə vəd edilmiş Cəhənnəmdir. Kafir olduğunuza görə bu gün orada yanın!"

Ya sin surəsi, 64-cü ayə

Kafirləri isə ən şiddətli əzab gözləyir.

Uca Allah buyurur:

CONTENTS






“Həqiqətən, Cəhənnəm (kafirlər üçün) pusquda dayanıb gözləyir.

O, həddi aşanların qayıdacağı yerdir. Onlar orada əsrlər boyu qalacaqlar. Onlar orada nə bir sərinlik, nə də (sərinlədici) içki dadacaqlar. (İçdikləri) yalnız qaynar su və irin (olacaq ).

(Törətdikləri əməllərinə) uyğun bir cəza kimidir. Doğrusu, onlar haqq-hesaba çəkiləcəklərinə ümid etmirdilər. Ayələrimizi də qətiyyətlə təkzib edirdilər. Biz hər bir şeyi hesablayıb yazmışıq.

Elə isə dadın (əzabı!) Biz sizə əzabdan başqa bir şey artırmayacağıq!“

ən-Nəbə surəsi, 21-30-cu ayələr

# Nəticə

“Ey insan! Səni öz Səxavətli Rəbbinə qarşı qoyan nədir? O ki, səni yaradıb kamilləşdirdi və sənə gözəl bir surət verdi. Səni istədiyi şəklə saldı. Xeyr! Əksinə, siz (Qiyaməti) (qiyamət günü yaxşılıqların mükafatını, pis əməllərin cəzasını) yalan hesab edirsiniz!”

əl-İnfitar surəsi, 6- 9-cu ayələr

Unutmayaq ki, tezliklə ölümün çağırışına cavab verəcəyik. Çalışaq məqsədimiz Allahı razı salmaq və Axirətə hazırlaşmaq olsun. Bu dünya sadəcə olaraq bizə verilmiş müvəqqəti fürsət diyarıdır. Ona görə də gəlin ondan ağıllı şəkildə istifadə edək. Bu dünyada və axirətdə xoşbəxt olmaq üçün özümüzün və başqalarının halını yaxşılaşdıraq.

*“Həqiqətən, itaətkarlar nemət içində olacaqlar. Şübhəsiz ki, günahkarlar da Cəhənnəmdə olacaqlar”*

əl-İnfitar surəsi, 13-14-cü ayələr

Ölüm qaçılmazdır. Həyatın qayəsi yalnız Allaha ibadət etmək, yaxşı işlər görmək və haramlardan çəkinməkdir. Bizim taleyimiz bu həyatdakı əməllərimizlə müəyyənləşir. Ona görə də ya yer üzündə bizə verilən möhlətdən istifadə edərək özümüzə cənnətdə əbədi bir yer təmin edə, ya da onu israf edib özümüzü cəhənnəm əzabına məhkum edə bilərik.

Part of the

مركز المعلومات الإسلامي
Islamic Information Center
للتعريف بالإسلام

# ISLAMIC e-LIBRARY

Learn more about Islam with our informative and educational materials, translated to over 50+ languages

Quran
Flyers
Books

iicdxb.com/flyers

@islamicicdxb